QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 227 (6191) 18 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Putin açıqladı: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir"



Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin bu fikri Moskvada bu gün keçirilən mətbuat konfransında söyləyib. V.Putin Dağlıq Qarabağ münaqişəsi zonasında döyüş əməliyyatlarının başlanmasının... Bax 3

## Prezidentin Sərəncamı icra olunur: 6143 ailəyə ilkin mərhələdə yardım edilir

Bax 3



Dekabrın 17-də "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr...

## Çavuşoğlu: "Rusiya ermənilərin atəşkəsi pozmasının qarşısını almalıdır"



"Rusiya ilə müqavilələr imzalanıb. Digər tərəfdən, meydanda atılacaq addımları ev sahibi Azərbaycanla da müzakirə etməliyik"... Bax 4

## Maksim Şevçenko: "Ermənistanda bir dənə rus kəndi qalmayıb"



Maksim Şevçenko İsmayıllı Rayonunun İvanovka kəndinə səfərindən sonra Yutube kanalı vasitəsilə izləyicilərinə müraciət edib. SİA xəbər verir ki, illərdir təmənnasız... Bax 4

# İlham Əliyev: "Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq"

*Prezident İlham Əliyev Əfqanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Bax 2

## "Putin Paşinyana "Amerika səfirliyinə qaçmasan səni dəstəkləyəcəyik" dedi"



Qələbə paradı ümumiyyətlə müharibəni bitirir və normal münasibətlərə və inkişafa yol açır. Bakıdakı hərbi parad kəskinləşmə üçün katalizatora çevriləcək yoxsa bütün Qafqaz üçün bir fürsət pəncərəsi açacaq? Ermənistanda daxili siyasi vəziyyət necədir? Hadisələr necə inkişaf edə bilər? Pravda/Ru-nun... Bax 5

Bax 6

## Dünyanın ən islahatçı on ölkəsindən biri - AZƏRBAYCAN



Dünya Bankı Qrupunun mühüm nəşrlərindən hesab edilən "Doing Business" hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən SİA-ya verilən məlumata görə, aparılmış müstəqil araşdırmanın nəticəsində...

### Vətən müharibəsi döyüşçüsü: Əsgərlər bir-biri üçün özlərini ölümə atırdılar



Bax 10

### Məsuliyyətsizlik koronavirusun geniş yayılması riskini artırır



Bax 12

### Kapitulyasiyadan sonrakı Ermənistan: Xaos, böhran, etiraz aksiyaları və...



Bax 11

# İlham Əliyev: “Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq”

*Prezident İlham Əliyev Əfqanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Amanullah Ceyhun dedi:***

-Zati-aliləri cənab Prezident, Sizi salamlayıram. Əvvəlcə, bu gün vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu gün burada olmaq və Prezident Əşrəf Qaninin salamlarını çatdırmaq mənim üçün şərəfdir. O, Sizə böyük ehtiramını ifadə edir, möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzu edir.

Zati-aliləri cənab Prezident, Prezident Əşrəf Qani tərəfindən imzalanmış və mənim Əfqanıstanın qardaş Azərbaycana, gözəl ölkənizə səfir təyin olunmağım haqqında etimadnaməmi, habelə sələfimin geri çağırılmasına dair məktubu Sizə təqdim etməkdən şərəf duyuram. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev:

-Cənab səfir, xoş gəlmisiniz, sizi görməyə çox şadam. Xahiş edirəm mənim də salamlarımı və ən xoş arzularımı cənab Prezidentə və qardaş əfqan xalqına çatdırasınız. Biz dostluq və tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Deyə bilərəm ki, ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı dialoqumuzun intensivləşdirilməsinə dair hər iki tərəfin güclü niyyətini nümayiş etdirir. Sizin mənim Prezident Qani ilə görüşlərim haqqında məlumatınız var. Biz onunla Azərbaycanda, xarici ölkələrdə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmüşük. İstənilən beynəlxalq tədbirdə biz hər zaman görüşmək üçün vaxt tapırıq. Onu da deyim ki, bizim görüşlərimiz həmişə çox məhsuldar olur. Biz münasibətlərimizdə ciddi tərəqqiyə nail olmuşuq. Birgə səylərimiz nəticəsində regionda tamamilə yeni vəziyyət yaranmışdır. Bizim siyasi əlaqələrimiz heç vaxt olmadığı qədər güclüdür. Biz iqtisadi əməkdaşlıq və sərmayə layihələrinə dair çoxsaylı məsələləri müzakirə edirik. Bildiyiniz kimi, biz bununla bağlı artıq müəyyən ideyalar ortaya qoymuşuq. Biz dövlət sektoru ilə bağlı birgə işlər görmüşük və mən şadam ki, “ASAN xidmət” modeli artıq Əfqanıstanda tətbiq edilir. Bu, Prezident Əşrəf Qaninin Əfqanıstanın modernləşdirilməsi, əhaliyə müasir xidmətlərin göstərilməsi ilə bağlı baxışının təzahürüdür və belə bir mühüm inkişafda rol oynamağımız bizi fərəhləndirir.

Bununla yanaşı, əməkdaşlığımızın daha bir vacib elementi təhlükəsizlik məsələləridir. Bildiyiniz kimi, Azərbaycan artıq 20 ilə yaxındır ki, Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir. Biz bütün bu illər ərzində ölkənizdə təhlükəsizliyin qorunmasına sadiqliyimizi nümayiş etdirmişik. Bildiyiniz kimi, biz müəyyən müddət əvvəl hərbçilərimizin sayını artırmaqla ölkənizdə təhlükəsizlik məsələsinə olan münasibətimizi, ölkənizdə təhlükəsizliklə bağlı siyasətimizi nümayiş etdirdik. Çünki təhlükəsizlik və sabitlik olmadan gələcək qurmaq çox çətindir. Biz bunları yaxşı bilirik. 1990-cı illərin əvvəlində biz də buna bənzər vəziyyətlə üzləşmişdik. Azərbaycanda pərakəndəlik, hərc-mərclik hökm sürürdü, siyasi, iqtisadi və hərbi böhran mövcud idi ki, bunlar ərazimizin bir hissəsinin itirilməsi ilə nəticələndi. Beləliklə, Prezidentin rəhbərliyi ilə hökumətinizin səyləri artıq bəhrəsini verir və biz modernləşdirmə proqramınızda iştirak etməkdən hər zaman məmnunuq. Hazırda regional nəqliyyat məsələlərində də irəliləyiş var. Şadıq ki, artıq Azərbaycan vasitəsilə Əfqanıstandan beynəlxalq bazarlara müəyyən yüklər nəql edilir. Biz məmnuniyyətlə öz nəqliyyat imkanlarımızı təqdim edirik. Bildiyiniz kimi, nəqliyyat sahəsi hər zaman mənim sizin Prezidentinizlə görüşlərimin gündəliyindədir və biz burada yaxşı irəliləyiş görürük. Regional geosiyasi vəziyyətdə dəyişiklikləri nəzərə alsaq, əlbəttə ki, əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır. Fürsətdən istifadə edərək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində bizim ədalətli mübarizəmizi dəstəklədiyinə görə qardaş Əfqanıstana təşəkkürümü bildirmək istəyirəm. Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib. Bizi hər zaman dəstəkləyib və Prezident, xarici işlər naziri və digər yüksək rütbəli məmurlar səviyyəsində bu məsələni vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və həqiqət bizim tərəfimizdədir. Eyni zamanda, biz bu dəstəyi müharibə zamanı da hiss etdik. Əfqanıstan Azərbaycana ictimai şəkildə dəstək verən ilk ölkələrdən oldu. Biz buna görə minnətdarıq, bütün Azərbaycan xalqı bunu bilir və yüksək qiymətləndirir. Biz bunu qardaşlıq rəmzi və eyni zamanda, beynəlxalq hüquqa hörmətin əlaməti hesab edirik. Çünki tarixi həqiqət və tarixi ədalət bizim tərəfimizdədir. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və beynəlxalq ictimaiyyət tərəfindən də belə tanınır. Ərazi bütövlüyümüzün bərpası və Vətən müharibəsində Qələbəmiz, əlbəttə, dövlətimizin gücünü, Azərbaycan xalqının iradəsini və sözümüzlə əməlimizin bir olduğunu nümayiş etdirdi. Beləliklə, müharibənin başa çatdırılması və işğal edilmiş ərazilərimizin azad olunması ilə bağlı Azərbaycan xalqı qarşısında verilən vədlər və götürülmüş öhdəliklər yerinə yetirilmişdir.

Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq. Ərazilərimizin bərpası və yenidən qurulması mərhələsindəyik. İşğal edilmiş ərazilərin dağıdılması ilə bağlı videomateriallar təqdim edilib. Bizim bütün şəhər və kəndlərimiz viran edilib, tarixi abidələrimiz dağıdılıb, mədəni abidələrimiz yerlə-yeksan olunub. Məscidlərimiz ya dağıdılıb, ya da onlar heyvan saxlanılması üçün istifadə edilib. Bununla onlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir ediblər. Həmin şəkilləri və videomaterialları görən dünya müsəlmanları bir daha anlayır ki, uzun illər ərzində biz hansı bəla ilə üz-üzə idik və ərazilərimizi, torpaqlarımızı azad edərək tarixi köklərimizə qayıtmaqla biz nəyə nail olmuşuq. Bildiyiniz kimi, bəzi hallarda Ermənistan müsəlman ölkələri ilə əlaqələr yaratmaq və ya münasibətləri möhkəmləndirmək cəhdləri edir. Lakin əminəm ki, həmin videoları görən dünya müsəlmanları öz hökumətlərinə güclü mesaj verəcəklər ki, məscidləri dağıdan, orada donuz saxlayan və islamofobiyanı təşviq edən ölkə ilə hər hansı təmaslardan çəkinsin. Burada siyasi, yaxud digər maraqlar ola bilər, ancaq hesab edirəm ki, bütün dünya müsəlmanların səslərini birləşdirməli, təcavüzkara güclü bir mesaj göndərməlidir ki, onların etdikləri qəbulolunmazdır və müsəlmanlar tərəfindən unudulmayacaqdır. Burada bir daha qardaş əfqan xalqına hər zaman - danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, Qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olduğuna, bizi dəstəklədiyinə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram. Əminəm ki, burada özünüzü vətəninizdəki kimi hiss edəcəksiniz.

Səfir Amanullah Ceyhun: Zati-aliləri cənab Prezident, əvvəlcə mən Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əfqanıstanın Azərbaycanda səfiri kimi fəaliyyət göstərmək mənim üçün böyük şərəfdir. Mən çox xoşbəxtəm ki, Azərbaycana çox özəl bir vaxtda gəlmişəm. Mən Azərbaycana müharibə başa çatandan sonra - noyabrın 13-də gəlmişəm. Yəni, Qələbədən üç gün sonra, erməni işğalı bitdikdən, Azərbaycan xalqı öz torpağına qovuşduqdan sonra gəlmişəm. Bu, mənim üçün böyük xoşbəxtlikdir. Çünki Azərbaycan çox önəmli bir tarix yaşayır.

Zati-aliləri cənab Prezident, bir daha qeyd edirəm ki, Azərbaycanda olmaq mənim üçün şərəfdir. Əminik ki, Sizin rəhbərliyiniz və Ali Baş Komandanlığınızla Azərbaycan böyük uğurlara nail olmuş və özünün coğrafi yerləşməsi, regional bağlılıq baxımından vacib ölkəyə çevrilmişdir. Zati-aliniz regional bağlılıqla əlaqədar Prezident Əşrəf Qaninin baxışına dəstək verib. Azərbaycana gəlişim ərəfəsində Prezident mənə təlimat vermişdir ki, onun salamlarını Sizə çatdırım, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edim. Həmçinin Prezidentimiz Azərbaycanın rəhbərliyinizlə əldə etdiyi uğurlar münasibətilə Sizi təbrik etməyimi tapşırıb. Zati-aliləri, Siz də qeyd etdiyiniz kimi, Azərbaycan və Əfqanıstan münasibətləri uzun tarixə malikdir.

## Misir qəzeti: Azərbaycan Prezidenti İlham Əliyev Ermənistana bir daha xəbərdarlıq edib



Misirin nüfuzlu “Əl-Məsr əl Youm” qəzetində “Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Qarabağ münaqişəsinin həllində heç bir rol oynamadığını bildirib” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi, tanınmış jurnalist Bəssam Ramadan yazıb: “Azərbaycanın dövlət başçısı Bakıda səfərdə olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə regionda artıq yeni şəraitin olduğunu söyləyib. Prezident İlham Əliyev təxminən 30 il davam edən Qarabağ probleminin Azərbaycanın özü tərəfindən hərbi və siyasi yollarla həll edildiyini əlavə edib”.

Məqalədə qeyd olunub ki, Azərbaycan Prezidenti Qarabağ münaqişəsini nizama salmaq məqsədi daşıyan ATƏT-in Minsk qrupunun 28 illik fəaliyyətinin tamamilə səmərəsiz olduğunu vurğulayıb. O əlavə edib ki, dövlət başçısı kimi onun özü 17 il davam edən danışıqlarda iştirak edib və bu qurumun fəaliyyətinin nəticə verməyəcəyi qənaətinə gəlib. Ermənistanın keçmiş prezidentləri Sarkisyan və Köçəryanın müharibə cinayətkarı olduqlarını da qeyd edən Prezident Əliyev bildirib ki, onlar indi bütün məsuliyyəti hakimiyyətə təsadüf nəticəsində gəlmiş Paşinyanın üzərinə qoymağa çalışırlar.

Müəllif diqqətə çatdırıb ki, ermənilərin uzun müddət işğal altında saxladıqları ərazilərə vurduqları ziyana görə Prezident İlham Əliyev məhkəmə prosesinin başladıldığını da deyib və yeni hərbi təxribatlara başlayacağı təqdirdə erməni faşizminin başının “dəmir yumruqla” əziləcəyi, Ermənistan ordusunun tamamilə darmadağın ediləcəyi barədə xəbərdarlıq edib.

## Putin açıqladı: “Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir”



Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin bu fikri Moskvada bu gün keçirilən mətbuat konfransında söyləyib.

V.Putin Dağlıq Qarabağ münaqişəsi zonasında döyüş əməliyyatlarının başlanmasının səbəbləri barədə sualın cavabında deyib: “Bu, nə üçün oldu? Vəziyyət nəzarətdən çıxmışdı, gərginlik illər boyu davam edirdi. Bunun kənardan hansısa müdaxilə ilə bağlı olduğunu düşünmürəm. Dəfələrlə gərginlik yaranır, atışmalar, xırda toqquşmalar olurdu. Nəticədə bütün bunlar münaqişə səviyyəsinə çatdı”.

RF Prezidenti vurğulayıb ki, Qarabağ məsələsində Türkiyənin mövqeyi bu ölkənin Azərbaycanın haqq işini müdafiə etməsinə əsaslanır. V.Putin deyib: “1990-cı illərdə hərbi toqquşmaların gedişində işğal edilmiş ərazilərin qaytarılmasından söhbət gedirdi. Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Dağlıq Qarabağın müstəqilliyini Ermənistan özü də tanımayıb və bu mənada Dağlıq Qarabağ özü də beynəlxalq hüquq baxımından Azərbaycandır”.

Rusiya Prezidentinin sözlərinə görə, üçtərəfli bəyanat çərçivəsində döyüş əməliyyatlarının dayandırılması barədə razılıq əldə edilib və tərəflər üçtərəfli bəyanatın imzalandığı anda olduqları mövqelərdə dayanmalıdırlar. Bununla əlaqədar infrastrukturla bağlı texniki məsələlər yaranır. V.Putin vurğulayıb: “Bu məsələləri sakit şəraitdə, danışıqlar prosesinin gedişində aydınlaşdırmaq lazımdır. Ona görə ki, üçtərəfli bəyanat buna əsas verir. Növbəti mərhələdə regionda münasibətlər tam normallaşdırılmalı, iqtisadi və infrastruktur potensialı üzə çıxarılmalıdır. Bu, avtomobil yollarına və dəmir yollarına, Naxçıvana yola da aiddir. Atəşkəs rejiminin pozulması məsələsinə gəldikdə, belə hadisə bir dəfə olub və ümidvaram ki, bu, yeganə hal kimi qalacaq”. V.Putinin sözlərinə görə, Dağlıq Qarabağda rusiyalı sülhməramlılar kontingentinin sayının artırılması yalnız bütün tərəflər arasında razılaşma əsasında mümkündür.

## Prezidentin Sərəncamı icra olunur: 6143 ailəyə ilkin mərhələdə yardım edilir



Dekabrın 17-də “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli Sərəncamının icrası məqsədilə Nazirlər Kabinetinin Sərəncamı dərc edilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Sərəncama əsasən, işçi qrupları tərəfindən təqdim edilən siyahılar əsasında hesablanmış ilkin olaraq 9 068 128 manat (bank xidməti ödənişləri də daxil olmaqla) məbləğində vəsaitin 2020-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Vəsaitlər işçi qrupları tərəfindən hesablanmış və təqdim olunmuş siyahılar əsasında aşağıdakı qaydada bölüşdürülür:

- Gəncə Şəhər İcra Hakimiyyəti: 2 920 500 (iki milyon doqquz yüz iyirmi min beş yüz) manat;
- Mingəçevir Şəhər İcra Hakimiyyəti: 67 000 (altmış yeddi min) manat;
- Ağdam Rayon İcra Hakimiyyəti: 1 848 500 (bir milyon səkkiz yüz qırx səkkiz min beş yüz) manat;
- Ağcabədi Rayon İcra Hakimiyyəti: 586 000 (beş yüz səksən altı min) manat;
- Bərdə Rayon İcra Hakimiyyəti: 233 000 (iki yüz otuz üç min) manat;
- Beyləqan Rayon İcra Hakimiyyəti: 124 000 (bir yüz iyirmi dörd min) manat;
- Cəbrayıl Rayon İcra Hakimiyyəti: 41 000 (qırx bir min) manat;
- Naftalan Rayon İcra Hakimiyyəti: 4 000 (dörd min) manat;
- Tərtər Rayon İcra Hakimiyyəti: 2 296 500 (iki milyon iki yüz doxsan altı min beş yüz) manat;
- Füzuli Rayon İcra Hakimiyyəti: 494 500 (dörd yüz doxsan dörd min beş yüz) manat;
- Goranboy Rayon İcra Hakimiyyəti: 421 500 (dörd yüz iyirmi bir min beş yüz) manat.

Vəsaitlər İcra hakimiyyətlərinin müvafiq xəzinə hesabına ödəniləcək.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları 10 gün müddətində yaşayış evlərinin sahiblərinin və ya onların qanuni nümayəndələrinin bank hesablarına (o cümlədən kart hesablarına) ödənilməsini təmin edərək, nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat təqdim edəcəklər. İlkin mərhələdəki yardımlar nəqliyyat vasitələrinə görə ödənişləri nəzərdə tutmur.

İşçi Qruplarının araşdırmalarına əsasən, 8221 daşınmaz əmlaka ziyan dəyib. Onlardan 300 fərdi ev, 75 yardımçı tikili və 10 çoxmənzilli bina tamamilə dağılıb. 222 nəqliyyat vasitəsinə ziyan vurulub, onlardan 21-i tam yararsız vəziyyətdədir. 989 baş mal-qara tələf olub.

Prezidentin müvafiq Sərəncamının icrası ilə əlaqədar dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı 258 ailəyə 3 151 500 manat (hər ailəyə 6000 manat və hər ailə üzvünə 1500 manat), şəxsi əşyalara dəymiş ziyanla bağlı 5885 ailəyə isə 5 milyon 885 min manat (hər ailəyə 1000 manat) yardım edilməsi nəzərdə tutulur.

Bərpası və təmiri mümkün olmayan əmlak sahibləri müasir layihələr əsasında tikilmiş yeni tikililərlə təmin olunacaq. Bərpası və təmiri mümkün olan əmlaklar isə dövlət hesabına təmir və bərpa ediləcək.

## “Haber Global” telekanalı Kəlbəcərdə: XÜSUSİ REPORTAJ




Türkiyənin “Haber Global” telekanalı Azərbaycanın işğaldan azad olunmuş Kəlbəcər rayonundan xüsusi reportaj yayımlayıb. SİA xəbər verir ki, kanalın Kəlbəcərə ezam olunmuş müxbiri Osman Girgin reportajın əvvəlində xatırladıb ki, Ermənistanın hücumları nəticəsində 1993-cü ildə Kəlbəcərin sakinləri olan azərbaycanlılar şaxtalı havada bu bölgənin cığırları ilə üç gün ərzində ayaqyalın yol gedib, öz torpaqlarında köçkün olublar. Reportajda həmin dəhşətli anları əks etdirən kadrlar da nümayiş etdirilib. Diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələrinin 27 il işğal altında saxladığı bu bölgədə törədilən dağıntıların, yanğınların izləri hər yerdə var.

Kadrlardan aydın görünür ki, qəsbkar ermənilər bölgəni tərk etmək məcburiyyətində qalanda belə yenidən vandalizm aktları törədərək evləri yandırıb, meşələrə, ağaclara qarşı əsl soyqırımı həyata keçiriblər. Hər şey dağıdılıb, məhv edilib. İşğalçılardan sonra burada, sadəcə, divarlar qalıb. Azərbaycan Ordusunun əsgərlərinin işğaldan azad olunmuş torpaqlarda bir nişanə qoymaq üçün divarlara yazdıqları yazılar da tamaşaçıların diqqətinə çatdırılıb. Reportajda vurğulanır ki, artıq Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Bölgənin təhlükəsizliyi və bu yerlərdə həyatın qurulması üçün əsaslı işlər görülür.

## “YAŞAT” Fonduna “ASAN ödəniş” vasitəsilə də dəstək olmaq mümkündür

***Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fonduna “ASAN ödəniş” sistemi vasitəsilə də ianə etmək imkanı yaradılıb.***




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndas?lara Xidmət və Sosial I?nnovasiyalar u?zrə Do?vlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Fonda dəstək olmaq istəyən şəxslər www.asanpay.az portalında “Ən populyar ödənişlər” bölməsində ilk sırada olan “Yardım fondu” kateqoriyasına daxil olub, “YAŞAT” Fondu” bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

“YAŞAT” Fondu bölməsində üç kateqoriya - Azərbaycan vətəndaşları üçün, xarici vətəndaşlar üçün və anonim ödəniş kateqoriyaları mövcuddur. Azərbaycan vətəndaşları üçün ödəniş bölməsində şəxslər FİN (şəxsiyyət vəsiqəsində olan Fərdi İdentifikasiya Nömrəsi) və mobil nömrə, həmçinin VÖEN və mobil nömrələrini daxil etməklə ödənişlərini həyata keçirə bilərlər. Qeyd olunan mobil nömrə Fond tərəfindən vətəndaşa gələcəkdə bildirişlərin göndərilməsində də istifadə olunacaq.

Xarici vətəndaş üçün ödəniş bölməsində Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi qeydiyyatı olan şəxslərin miqrasiya vəsiqələrində olan FİN və mobil nömrə ilə, həmçinin ad və soyadla ödənişlərin həyata keçirilməsi mümkündür.

Anonim bölməsində isə kimliyinin bilinməsini istəməyən şəxslər ödənişlərini həyata keçirə bilərlər. Ödənişlər identifikasiya prosesindən keçdikdən sonra şəxslər kart məlumatlarını daxil edərək, ödənişlərini tamamlaya bilərlər.

Xatırladaq ki, çoxfunksiyalı “ASAN ödəniş” sistemi, habelə cərimə, kommunal xidmət və digər ödənişləri qısa zamanda, təhlükəsiz və rahat şəkildə həyata keçirmək imkanı yaradır. 280-dən çox qurumun cərimə, rüsum, kommunal, lizinq, kredit, icarə haqqı və digər ödənişləri “ASAN ödəniş” sisteminin www.asanpay.az ödəniş portalı və terminalları, eləcə də Android və İOS platformalarında “ASAN ödəniş” mobil tətbiqi vasitəsilə təmin edilir. Fonda ödəniş etmək qaydası barədə ətraflı aşağıdakı videotəlimatda tanış olmaq mümkündür.

# Qələbəmizin rəmzinə çevrilən - Qarabağ Azərbaycandır və nida!

*Prezident İlham Əliyev: "Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq!"*

***Bəli, bu gün böyük bir Qələbənin -İkinci Vətən Müharibəsinin Zəfər gününü böyük qürurula, sevinclə yaşayırıq. Bu sevinci, bu Qələbəni bizə yaşadan Şanlı Orduмuza, Müzəffər Ali Baş Komandanımız, igid əsgər və zabitlərimizdir. Torpaqlarımızı işğaldan azad edərkən canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, yaralı əsgərlərimizə şəfa diləyirik. Biz onlara sonsuz minnətdarıq, onlarla fəxr edirik və qürur duyuruq.***



Bu möhtəşəm Qələbənin qazanılmasında onların misilsiz xidmətləri, göstərdikləri şücayət ən yüksək mükafatlara layiqdir. O övladları böyüdən valideynlər qarşısında baş əyirik, əllərindən öpürük. Eyni zamanda, Qələbəmizin əldə edilməsində qəti mövqeyinə və təmənnasız siyasi - mənəvi dəstəyinə görə qardaş Türkiyəyə, hörmətli Cumhurbaşqanı Rəcəb Tayyub Ərdoğan olmaqla onun rəhbərlərinə, eləcə də Pakistan Respublikasına, bizi dəstəkləyən digər dost ölkələrə və beynəlxalq təşkilatlara dərin minnətdarlığımızı bildiririk.

### Prezident İlham Əliyev: "Artıq Azərbaycan xalqının səbri tükənmişdi"

Bəli, Azərbaycan xalqının artıq səbri tükənmişdi. 30 il düşmən əsarətində olan torpaqlarımızın həsrətinə son qoymağın zamanı idi. Prezident İlham Əliyev xalqa müraciətində dediyi kimi: "Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir".

Dövlətimizin başçısı deyib: "Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib".

### "Biz alçaltmışıq onu, əcəb də etmişik!"

Dövlət başçısı onu da bildirib ki, işğalçı Ermənistan bunun cəzasını çəkəcək, özü də diz çökə-çökə, yalvara-yalvara, o torpaqlardan da iti qova-qova qovduq, qovuruq da: "Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik!. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq".

### "Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı"

"Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq",-deyən dövlət başçısı bildirib ki, bizim dəmir yumruğumuzun gücünü gördülər: "Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik". "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır",-deyən Prezident İlham Əliyev bildirib ki, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi: "Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik...Qarabağ Azərbaycandır və nida! ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi...Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

### "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi"

Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də, məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 17 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir.

Prezident İlham Əliyev xalqa müraciətində də bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".

Bəli, 44 gün ərzində baş verən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və bu gün dekabrın 10-da keçiriləcək Qələbə Paradı xalqımızın birliyinin, Müzəffər Ordumuzun Gücünün, qəhrəman əsgər və zabitlərimizin öz Ali Baş Komandanı, Prezident İlham Əliyev ətrafında birliyinin dünyaya nümayişi olduğunun reallığıdır.

### İqor Korotçenko: "Bax, tarix belə yaradılır!"

"Yerevanda Paşinyan və müxalifət bir-biri ilə münasibətlərini aydınlaşdırır, Bakıda möhtəşəm Qələbə paradı hazırlayırlar". Bunu rusiyalı siyasi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko "Telegram" kanalında yazıb. "Paradı dünyanın aparıcı siyasətçilərinin onluğuna daxil olan İlham Əliyev qəbul edəcək. Bax, tarix belə yaradılır!", - Korotçenko vurğulayıb.

**RƏFİQƏ HÜSEYNOVA**

## Çavuşoğlu: "Rusiya ermənilərin atəşkəsi pozmasının qarşısını almalıdır"



"Rusiya ilə müqavilələr imzalanıb. Digər tərəfdən, meydanda atılacaq addımları ev sahibi Azərbaycanla da müzakirə etməliyik". SİA-nın verdiyi xəbərə görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu 24 TV-yə müsahibəsində deyib.

O qeyd edib ki, hazırda Qarabağda müşahidə nöqtələrinə - mərkəzi və digər yerlərə nə qədər insan gələcək, ev sahibi ilə müqavilə imzalanmasına ehtiyac var və ya yoxdur kimi məsələlərlə bağlı Azərbaycanla danışıqlar aparılır: "Ən qısa zamanda bu mərkəzi quracağıq. Atəşkəsin davamlı olması üçün lazımi addımları atacağıq. Bunun tezliklə reallaşmasında fayda var. Son günlər Ermənistan tərəfindən atəşkəsin pozulması halları baş verdi. Azərbaycan onların cavabını verdi, amma burada Rusiyanın da məsuliyyəti var. Çünki üçtərəfli bəyanata əsasən, orada Rusiyanın sülhməramlı qüvvələri var. Rusiya atəşkəsin pozulmasının qarşısını almalıdır, əks təqdirdə Azərbaycan Prezidenti cənab İlham Əliyev lazımi mesajı verib".

***Aysel Məmmədova***

## Maksim Şevçenko: "Ermənistanda bir dənə rus kəndi qalmayıb"



Maksim Şevçenko İsmayıllı Rayonunun İvanovka kəndinə səfərindən sonra Yutube kanalı vasitəsilə izləyicilərinə müraciət edib. SİA xəbər verir ki, illərdir təmənnasız olaraq Azərbaycan həqiqətlərini dünyaya çatdıran rusiyalı jurnalist, bloger və siyasətçi Maksim Şevçenko öz videomüraciətində bunları söyləyib: "Rus dünyası" ifadəsinin prizmasından Azərbaycanla Ermənistanı müqayisə etsək, görərik ki, Ermənistanda bir dənə də olsun, rus kəndi qalmayıb. Oradakı malakan kəndləri dağıdılıb. Azərbaycanda isə İvanovka adlı kənd var. Mən orda oldum. Bu günlərdə öz kanalımda həmin səfərimlə bağlı reportaj təqdim edəcəyəm.

Sözügedən kənddə duxobor malakanlar yaşayır. Bu xalq Azərbaycanda çox sevilir. Azərbaycandakı İvanovka kəndi kimi rus kəndlərinə Rusiyanın özündə belə rast gəlməmişəm. Orada ikimərtəbəli gözəl daş evlər var. Azərbaycanın heç bir bölgəsində kolxoz yoxdur, İvanovkada isə var. Mərhum Heydər Əliyev İvanovkanın kolxoz sədri Nikitinlə dostluq edirdi, bu üzdən İvanovkanın Azərbaycan üçün nə kimi əhəmiyyət kəsb etdiyini anlayırdı.

Heydər Əliyevin şəxsi göstərişi ilə İvanovkada kolxozun qalmasına icazə verilmişdi. Mən orada oldum. Rus mənşəli yerli sakinlər mənə dedi ki, biz uzun illərdir burada yaşayırıq, övladlarımız Azərbaycan ordusunda xidmət edir, cəbhədə döyüşür. Bir cavan duxobor noyabrın 9-u şəhid oldu, malakanlar arasında yaralananlar da var. Ümumiyyətlə, Azərbaycan orsusunda xidmət edən ruslar arasında şəhid olanlar az deyil. Odur ki, Moskvadakı saxta təbliğatçıları dinləməyin. Onları dinləməyin, ay azərbaycanlılar. Onların səsi rus xalqının, Rusiyanın səsi deyil".

## Şuşa şəhərinə içməli su verilib

Kiçik Kirs mənbəyindən sonra Zarıslı mənbəyindən suyun verilməsi ilə Şuşa şəhərinin alternativ və dayanıqlı içməli su təchizatı təmin edilib.





Şuşa şəhərinin içməli su təchizatının dayanıqlığını təmin etmək və Kiçik Kirs mənbəyindən asılılığı aradan qaldırmaq üçün Zarıslı mənbəyi və Zarıslı-Şuşa magistral kəmərində aparılan təmir-bərpa işləri yekunlaşıb və şəhərə yeni mənbədən suyun verilməsi təmin olunub.

# "Putin Paşinyana "Amerika səfirliyinə qaçmasan səni dəstəkləyəcəyik" dedi"



***Qələbə paradı ümumiyyətlə müharibəni bitirir və normal münasibətlərə və inkişafa yol açır. Bakıdakı hərbi parad kəskinləşmə üçün katalizatora çevriləcək yoxsa bütün Qafqaz üçün bir fürsət pəncərəsi açacaq? Ermənistanda daxili siyasi vəziyyət necədir? Hadisələr necə inkişaf edə bilər? Pravda/Ru-nun ba. redaktoru İnna Novikovanın bütün bu və digər suallarını hərbi ekspert, Milli Müdafiə jurnalının baş redaktoru İqor Korotçenko cavablandırıb. Müsahibəni təqdim edirik. Müsahibənin əvvəlini oxuyun:***

https://sia.az/az/news/politics/843006.html

***- İqor, sizcə Rusiya Federasiyasının Prezidenti niyə Bakıdakı paradda deyildi, dəvət edildi, ya yox?***

- Düşünürəm ki, Bakıda çox praqmatik siyasətçilər var. Putin açıq şəkildə olmasa da, Azərbaycana rəğbət bəsləyir, həmçinin, Türkiyə və Azərbaycanla bağlı açıqlamaları yaxşıdır. O, diplomatdır və prezidentimiz bərabər məsafə saxlayır. Və bütövlükdə Rusiyanın mövqeyi bərabər məsafədə idi. Biz nə Azərbaycanı, nə də Ermənistanı dəstəkləmədik. Ermənistana kömək etsək də, bunun üçün mübarizə aparmadıq. Bütün öhdəliklər yerinə yetirilmişdir. Düşünürəm ki, Vladimir Vladimiroviç onsuz da parada getməzdi. Azərbaycan rəhbərliyi yaxşı bilir ki, bu halda Putini Bakıdakı parada dəvət etmək, yumşaq desək, vəziyyəti düzəltməyə kömək etməyəcək.

Axı sülhməramlılarımız bölgədədirlər, fəal şəkildə humanitar yardım göstərirlər, məktəbləri, xəstəxanalarını bərpa edirlər, səhra xəstəxanası yerləşdirilib, qaçqınlara yardım göstərmək üçün humanitar cavab mərkəzi yaradılıb. İnsani komponent vacibdir. Əsir mübadiləsi vacibdir, bu proses davam etdirilməlidir. Buna görə də, Rusiyanın belə bərabər məsafəli mövqeyi, əlbəttə ki, ən optimaldır.

## Parad nöqtəsi bir fürsət pəncərəsi açır

Bəlkə də hərbi qarşıdurmaya son qoyulduqdan və hərbi paraddan sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün də bir fürsət pəncərəsi açıla bilər. Ən azı, Ermənistan parlamentindəki Müdafiə Komitəsinin sədri Azərbaycanla diplomatik münasibətlər qurmağın lehinə danışdı, bu olduqca gözlənilməzdir.

Parad nöqtə qoydu. Bundan əlavə- əsir mübadiləsi və yeni bir fürsət pəncərəsi yaranıb. Bu pəncərəni kimin necə istifadə edəcəyi burada çox vacibdir. Hər şey, müharibə də daxil olmaqla, gec-tez bitir.

## Ermənistan üçün imkanlar

İndi bundan sonra nə olacağı da çox vacibdir. Azərbaycan necə olacaq? Ermənistan necə olacaq? Humanitar layihələr həyata keçiriləcəkmi? Yalnız onsuz da təkcə Rusiya sülhməramlılarının nəzarəti altında fəaliyyət göstərən Laçın dəhlizinin deyil, Naxçıvan və Azərbaycanın əsas hissəsi arasında Ermənistan ərazisindən keçən nəqliyyat dəhlizinin də açılacağından bəhs olunur. Əslində, bu, Ermənistan üçün müharibənin sonundan etibarən bir növ iqtisadi mükafat almaq baxımından yeni reallığa inteqrasiya etməyə başlamaq üçün yaxşı bir fürsətdir.

Yenə də Ermənistanda intiqam əhval-ruhiyyəsi inkişaf edərsə, hər halda bu yaxşı bir şeyə səbəb olmaz. Ermənistan iqtisadi canlanmaya diqqət yetirməlidir, vəziyyət çox çətindir, əlbəttə ki, yalnız koronavirus səbəbindən deyil.

Koronavirus bəlkə bir il yarımdan sonra keçəcək. Yaxşı qonşuluq münasibətləri əsasında regiondakı bütün ölkələrin iqtisadiyyatının inkişafı üçün yeni imkanlardan istifadə etmək lazımdır. Çətinliklər və təhdidlər çoxdur, eyni zamanda perspektivlər də çoxdur.

***- Prezidentimiz xaricdəki "dostlarımızın" köməyi ilə hakimiyyətə gələn və açıq şəkildə anti-Rusiya siyasəti yürüdən Paşinyana dəstək olduğunu bildirdi. Sizcə, bu baxımdan vəziyyət necə dəyişəcək?***

- Əvvəlcə əlbətdə ki, onu "qərbli uşaqlar" irəli sürdülər, amma sonra Ermənistan xalqı özü ona səs verdi. Gəlin realist olaq. Biz yaxşı başa düşürük ki, Paşinyan bu müqaviləni imzalamadan əvvəl Putinlə kifayət qədər uzun, səmimi və qeyri-rəsmi söhbətlər etdi.

Aydındır ki, Paşinyan suallar verdi: mənimlə nə olacaq, məni dəstəkləyəcəksən? ... Buna bəlkə də Vladimir Vladimiroviç ona dedi: "Nikol Vovayevich, Amerika səfirliyinə və Soros-a dəstək üçün qaçmasanız səni dəstəkləyəcəyik".

Qapalı söhbətin belə bir xüsusiyyətini istisna edə bilmərəm. Heç olmasa, indi Ermənistanın anti-Rusiya kursunun həyata keçirilməyəcəyinə dair bəzi razılaşmaların əldə edildiyi, Paşinyanın bu proseslərə bir sədd qoyacağı açıqdır.

Ermənistan indi elə bir vəziyyətdədir ki, artıq çoxvektorlu bir siyasətin həyata keçirilməsi, fikrimcə, artıq mümkün deyil. Ermənistanın milli maraqlarını nəzərə alaraq əlbəttə ki, birmənalı şəkildə Rusiyapərəst siyasət olmalıdır. Ancaq bu istiqamətlər tamamilə üst-üstə düşür. Bu baxımdan mənə elə gəlir ki, indi çox şey dəyişəcək.

***Bundan sonra nə olacaq?***

Eyni zamanda, Yerevandakı siyasi vəziyyətin necə inkişaf edəcəyini hələ tam anlamırıq. Nə olacaq? Bu etiraz aksiyaları səngiyəcəkmi? Hər hansı bir konstitusiya qanunlarına hörmət ediləcəkmi və s.

Bakıdakı parad Yerevanda daha çox iğtişaş üçün katalizator ola bilər. Baxmayaraq ki, bəlkə də Ermənistan başa düşəcək ki, indi ölkəsini yenidən qurmağa diqqət yetirmək lazımdır və bu, əsas vəzifə olacaqdır. Ermənistan Azərbaycanın ərazi bütövlüyü haqqını tanıdığına görə, üçtərəfli siyasi müqavilənin imzalanmasından bu yana keçən 1 aydan çox vaxtda o, bütün öhdəliklərini yerinə yetirdi. Anladığım qədəri ilə Rusiyanın da şəxsən Ermənistan və Paşinyanla bağlı qarşılıqlı öhdəlikləri var, heç olmasa onun dərhal istefası tezisini tətikləməyəcəyik.

***Tərcümə: Elçin Bayramlı***

# Nazir: Azərbaycanda rəqəmsal inkişaf və innovasiyalar hökumətin siyasi gündəmində prioritetdir




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və "FA International Trade Events" MMC-nin birgə təşkilatçılığı ilə "World Net Summit" adlı beynəlxalq onlayn konfrans baş tutub. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə dövlət qurumları, özəl sektor, beynəlxalq təşkilatlar, xarici ölkələrdən yüksək səviyyəli dövlət nümayəndələri, nazirlər, ölkəmizdə fəaliyyət göstərən xarici diplomatik korpusun nümayəndələri, habelə dünyanın ilk süni intellektli humanoid robotu "Sofiya", "Hanson Robotiks" şirkətinin yaradıcısı David Hanson, "Baykar Makina" şirkətinin texniki direktoru Səlçuk Bayraktar və digər xarici ekspertlər iştirak ediblər.

Onlayn tədbir iştirakçılarını salamlayan nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi nəticəsində bölgədə sülhün təmin edildiyini bildirib. Nazir qeyd edib ki, bu, Azərbaycanın işğaldan azad olunan bölgələrinin inkişafı üçün yeni imkanlar yaradır və innovasiyalar sahəsində regional əməkdaşlığı inkişaf etdirir.

R.Quluzadə müasir texnologiyaların günümüzün əsas problemlərindən biri olan koronavirusun həllində mühüm rol oynadığını, rəqəmsal texnologiyaların pandemiyanın iqtisadi və sosial nəticələrinin daha ağır olmasının qarşısını aldığını diqqətə çatdırıb. Pandemiya dövründə bu texnologiyalardan istifadəyə ehtiyacın sürətlə artdığını söyləyən nazir vurğulayıb ki, texnologiyanın gətirdiyi dəyişikliklərə də hazır olmalıyıq: "Ölkəmizdə pandemiya ilə mübarizə və onun təsirini minimuma endirmək üçün etibarlı strategiya qəbul edilib. İnformasiya texnologiyalarının geniş tətbiqi ilə yüksəkkeyfiyyətli və davamlı xidmətlər təqdim etmişik. Azərbaycanda rəqəmsal inkişaf və innovasiyalar hökumətin siyasi gündəmində prioritetdir". Nazir əlavə edib ki, ölkədə "ağıllı şəhər" həllərinin tətbiqi genişlənir. Bu fəaliyyət açıq hökumət təşəbbüslərindən biridir və 2020-2022-ci illər üçün Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planında öz əksini tapıb.

# Xankəndi Bakının nəzarətinə nə vaxt keçəcək?

*Rusiyanın ictimai xadim, tarixçi Dmitri Verxoturovun Axar.az-a müsahibəsi:*



***- Azərbaycanın qələbəsini və Ermənistanın bitmiş müharibədəki ümumi məğlubiyyətini necə qiymətləndirirsiniz?***

- Fikrimcə, bu, əsas razılaşmaların həyata keçirilməsi üçün bir müharibə idi. Müharibənin nəticəsi demək olar ki, Şuşa şəhəri və bəzi digər ərazilər istisna olmaqla, razılaşmada nəzərdə tutulduğu kimi eyni oldu. Bəli, bu, Ermənistan üçün məğlubiyyətdir və erməni siyasi ambisiyalarına ciddi zərbədir.

***- Uzun müddət dondurulmuş hesab edilən Qarabağ münaqişəsi tamamilə həll edilmiş sayıla bilərmi?***

- Bəli, çox güman ki, bitib. Çətin ki, Ermənistan hərbi intiqam almağa cəhd edə, "dqr"in taleyinə gəlincə isə, fikrimcə, onun "inkişaf istiqaməti" köklü şəkildə dəyişdi. İndi onun müəyyən bir ayrı ərazisi, tanınmamış bir "dövlət" kimi faktiki ləğvindən danışırıq və gələcəkdə bütün Qarabağ bölgəsi (Xankəndi də daxil olmaqla) Azərbaycanın nəzarətinə veriləcəkdir. Lakin bu, tezliklə baş tutmayacaq və müəyyən keçid dövrü tələb edə bilər.

***- Sizcə, yaxın 10 ildə bölgədə nə baş verəcək?***

- Düşünürəm ki, Qarabağ erməniləri harada yaşamaq istədiklərinə qərar verməli olacaq: Azərbaycanda, Ermənistanda və ya başqa bir yerdə (məsələn, Rusiyada). Qarabağ bölgəsinin gələcək tarixi taleyi bu seçimdən asılı olaraq formalaşacaq. Prezident İlham Əliyevin də bildirdiyi kimi, Azərbaycan geri qaytarılmış ərazilərin infrastrukturunun bərpası və iqtisadi inteqrasiyası ilə məşğul olacaq.

***- Ərazilərin Azərbaycanın nəzarəti altına qaytarılması və sülhməramlıların yerləşdirilməsi ilə ermənilərin Azərbaycanın mədəni və tarixi abidələrinə, o cümlədən xristian kilsələrinə vəhşicəsinə münasibətinin nəticələri aşkarlandı. Beynəlxalq ictimaiyyət buna necə reaksiya göstərməlidir?***

- Qınaq yolu ilə. Hərçənd, təkcə qınama çox da nəticə vermir. Bu abidələrin bərpası üçün bir proqram tələb olunacaq. Hesab edirəm ki, Azərbaycan bu sahədə beynəlxalq təşkilatların dəstəyini ala biləcək. Bərpa işləri hələ davam etdiyindən qazıntılar, abidələrin memarlıq tədqiqatları və s. aparmaq lazımdır, çünki ikinci belə şans tezliklə ələ düşməyə bilər.

# Misirli jurnalist Azərbaycan mədəniyyətinin incisi İçərişəhərdən yazıb

Misirin tanınmış jurnalisti, "Aldiplomasy" informasiya portalının baş redaktoru Əşrəf Əbu Urafə Azərbaycan mədəni irsinin incisi İçərişəhər haqqında geniş məqalə yazıb. AZƏRTAC xəbər verir ki, məqalədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Şirvanşahlar Sarayı Kompleksi və Qız qalasının iyirmi il əvvəl UNESCO-nun Dünya İrs Siyahısına salınması, bu nadir tarixi məkanın Azərbaycanda dövlət səviyyəsindən qorunması barədə məlumat verilir. Əlavə edilir ki, Dünya İrs Şəhərləri Təşkilatının Cənubi Avropa və Aralıq dənizi ölkələri üzə Regional Katibliyinin "Mobillik və Mədəni irs" mövzusunda kitabçasında İçərişəhər Avropanın 13 tarixi şəhərindən biri seçilib.

Müəllif diqqətə çatdırıb ki, İçərişəhər orta əsrlərdə Azərbaycanda yüksək inkişaf etmiş şəhərsalma sənətinin olduqca qiymətli incisi olub. Onun ərazisində yerləşən Qız qalası, Şirvanşahlar sarayı kompleksi ilə bərabər qala divarları, məscidlər, karvansara, zorxana, hamam, bazar meydanı və sair obyektlər Azərbaycan memarlıq sənətinin keçdiyi ayrı-ayrı mərhələləri özündə əyani şəkildə təcəssüm etdirən misilsiz abidələrdir. Bu məkan XIX əsrdən, neft sənayesinin inkişafı ilə İçərişəhər adlanmağa başlayıb. Arxeoloji qazıntılar hələ VII əsrdən İçərişəhərdə yaşayış binaları tikildiyini göstərir. Yerli şəraitə uyğunlaşdırılmış küçələr şəbəkəsi, ərazidən əlverişli istifadə edilməsi, əsas binaların yerləşdirilməsində dəniz amilinin nəzərə alınması İçərişəhəri şəhərsalma sənət nümunəsi kimi səciyyələndirir. Qız qalasının ətrafı orta əsrlərdə şəhərin mərkəzi olub. XVIII əsrdə Bakı xanlığının yaranması ilə əlaqədar olaraq İçərişəhərdə Xan Sarayı tikilib və yeni su kəmərləri inşa edilib.

# Dünyanın ən islahatçı on ölkəsindən biri - AZƏRBAYCAN




***Dünya Bankı Qrupunun mühüm nəşrlərindən hesab edilən "Doing Business" hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən SİA-ya verilən məlumata görə, aparılmış müstəqil araşdırmanın nəticəsində Azərbaycanın "Doing Business 2020" hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılıb, Azərbaycan bir daha dünyanın "Ən islahatçı on ölkəsi" sırasına daxil olub.***

Xatırladaq ki, 27 avqust 2020-ci il tarixində Dünya Bankı tərəfindən yayımlanmış press-relizdə bildirilib ki, bir sıra üzv ölkələrin "Doing Business" hesabatındakı məlumatlarının Bankın daxilində emal edilməsi prosesində uyğunsuzluqlar aşkarlanıb, bu uyğunsuzluqların mahiyyətinin müəyyən edilməsi istiqamətində müstəqil araşdırma aparılacağı qeyd edilib.

Dünya Bankının 16 dekabr 2020-ci il tarixli press-relizində qeyd edilir ki, Dünya Bankının Daxili Audit strukturları tərəfindən 2016, 2017, 2018, 2019 və 2020-ci illər üzrə məlumatların müfəssəl diaqnostikası aparılmış, ölkələrin reytinqlərinin bu dəyişikliklərin hesabatın metodologiyaları ilə uyğunluğu bir daha nəzərdən keçirilmiş və nəticədə ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənib.

Müvafiq araşdırmalar nəticəsində Azərbaycanda 3 istiqamətdə aparılmış islahatların ("elektrik təchizatı şəbəkələrinə qoşulma", "müqavilələrin icrası", "sərhəddə ticarət" indikatorları üzrə) "Doing Business 2020" hesabatında lazımınca qiymətləndirilmədiyi və daha az balla qiymətləndirildiyi məlum olmuşdur. Qeyd edək ki, müvafiq diaqnostik qiymətləndirmə 4 ölkəni - Azərbaycan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Çini əhatə edib.

Qeyd edək ki, müvafiq düzəlişlərdən sonra "Doing Business 2020" hesabatında Azərbaycanın əldə etdiyi bal 76,7 baldan 78,5 bala qədər artırılıb. Bununla da, ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlmişdir. Bu mövqe irəliləməsi nəticəsində Azərbaycan Dünya Bankı tərəfindən yenidən "dünyanın ən islahatçı on ölkəsindən biri" kimi qiymətləndirilib. Xatırladaq ki, "Doing Business 2019" hesabatında da Azərbaycan "dünyanın ən islahatçı on ölkəsindən biri" kimi qiymətləndirilmişdi. Aparılmış müstəqil audit yoxlamalarının nəticəsi olaraq, Azərbaycanın reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat press relizə əlavədə qeyd edilib.

Azərbaycanın Dünya Bankı ilə sıx əməkdaşlığının 28 illik tarixi vardır. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən geniş miqyaslı islahatlara daim dəstək verib.

"Doing Business" hesabatında qeydə alınmış məqamlarla bağlı müstəqil araşdırma Dünya Bankının yüksək peşəkarlığını göstərməklə yanaşı, Azərbaycanın Dünya Bankı, istərsə də digər tərəfdaşları ilə münasibətlərində dürüstlüyün ən mühüm dəyər olduğunu bir daha sübut edib.

Azərbaycanın "Doing Business" hesabatındakı reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat:

### 1. "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə

Bu indikator vasitəsi ilə elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə ərizələr, elektrik enerjisi müəssisələri ilə müqavilələr, elektrik paylayıcı şirkətlər və digər agentliklər tərəfindən bütün zəruri yoxlamalar və icazələr, habelə xarici və yekun qoşulma işləri və s. üzrə islahatların aparılması ölçülür. Müvafiq istiqamətdə coğrafi informasiya sisteminin kommunal sistemdə tətbiqi islahatı sahəvi yoxlamaların aparılması zərurətini aradan qaldırmış və müvafiq sənədləşmələrin aparılması müddətinin azalmasına səbəb olub. Xüsusilə, texniki şərtlər üçün sahəvi müayinələrin aparılması proseduru ləğv edilmiş və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılıb. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayının 5-ə, müddətin isə 32 günə kimi azaldığı öz əksini tapıb. Qeyd edək ki, müvafiq göstəricilər daha öncə hesabatda, müvafiq olaraq, 7 və 41 gün kimi əks olunub.

### 2. Müqavilələrin icrası indikatoru üzrə

"Doing Business" hesabatı "Hüquqi proseslərinin keyfiyyəti indeksi" vasitəsi ilə hər bir ölkənin öz məhkəmə sistemində aşağıdakı dörd sahə üzrə yaxşı təcrübələri tətbiq edib-etmədiyini müəyyən edir: məhkəmə strukturu və prosesləri, məhkəmə işinin idarə edilməsi, avtomatlaşdırılmış məhkəmə sistemi və mübahisələrin alternativ qaydada həlli. Müvafiq sub-indikator üzrə aparılmış diaqnostik yoxlamalar nəticəsində Azərbaycanın göstəricisi 6,5 baldan 10,5 bala kimi artırılmışdır. Bununla da, ölkədə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması Dünya Bankı tərəfindən təsdiq olunub.

### 3. Sərhəddə ticarət indikatoru üzrə

"Doing Business" hesabatı ixrac və idxal olunan məhsulların daşınma prosesi ilə bağlı vaxt və xərcləri qeydə alır, mal partiyasının ümumi idxal və ixrac prosesində üç prosedur qrupu (sənədlərlə bağlı tələblərə əməletmə, sərhəddə tələblərə əməletmə və yüklərin ölkədaxili daşınması) ilə bağlı vaxt və xərcləri qiymətləndirir. Sərhəddə ticarətin asanlığı baxımından ölkələrin reytinqi onların sərhəddə ticarət indikatoru üzrə ballarının sıralanması əsasında müəyyən edilir. Müvafiq indikator üzrə audit qrupu tərəfindən aparılmış araşdırmalar nəticəsində "ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 12, "idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 4, "ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 28,5, "idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 26 saat, "ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)" sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit olunub.

Qeyd edək ki, müvafiq sub-indikatorlar üzrə göstəricilər daha öncə hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi qiymətləndirilmişdi.

Beləliklə, Dünya Bankı tərəfindən aparılmış yeni qiymətləndirmə ölkədə "sərhəddə ticarət" prosedurlarında idxal deklarasiyası, ixrac gömrük sənədləşmələrinin sadələşməsi üzrə mühüm islahatların aparılmasını bir daha təsdiq edib.

Dünya Bankının aidiyyəti daxili nəzarət qurumları ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirmiş bu uyğunsuzluqlara yol vermiş bankın məsul şəxsləri barədə Bankın Biznes Etikası qaydalarına uyğun inzibati tədbirlər görəcək.

"Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi üzrə yenilənmiş qiymətləndirmə

| İndikatorlar | Daha öncə nəşr olunmuş hesabat üzrə mövqe | Müvafiq düzəlişdən sonra yekun göstərici |
|---|---|---|
| Elektrik təchizatı şəbəkələrinə qoşulma | | |
| - prosedurların sayı | 7 | 5 |
| - müddət (günlər) | 41 | 32 |
| Müqavilələrin icrası | | |
| - hüquqi proseslərinin keyfiyyəti indeksi | 8 | 10,5 |
| Sərhəddə ticarət | | |
| - ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" | 17 | 12 |
| - idxala sərf olunan müddət: sərhəd prosedurları (saat) | 14 | 4 |
| - ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat) | 33 | 28,5 |
| - idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat) | 33 | 26 |
| - ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları) | 250 | 150 |

# “Dağlıq Qarabağa qayıdış”

*İsveçrənin “RSI” teleradiosu Ağdamdan və Füzulidən hazırladığı reportajda erməni vəhşiliklərindən bəhs edir*




***İsveçrənin italyandilli “RSI” teleradiosunda “Dağlıq Qarabağa qayıdış” adlı reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına səfər edən telekanalın əməkdaşı Filippo Çiçu tərəfindən hazırlanmış reportajda dağıdılmış yaşayış məntəqələri nümayiş olunur. Jurnalist Ağdam və Füzuli şəhərlərinin “ruhlar məkanı”na çevrildiyini diqqətə çatdırır.***

Reportajda 30 il bundan əvvəl bu ərazilərdən didərgin salınmış azərbaycanlıların tədricən öz torpaqlarına qayıdışından bəhs olunur. Həmçinin sentyabr ayından noyabr ayınadək davam edən 44 günlük müharibədən söhbət açılır.

Reportajda ötən əsrin 90-cı illərində Ermənistanın Qarabağa nəzarəti ələ keçirərək, əhalisi azərbaycanlılardan ibarət olan şəhər və kəndlərin sakinlərini qovduğu və həmin ərazilərdə hərbi postlar qurduğu bildirilir. Qeyd edilir ki, 30 illik işğal zamanı “ruhlar məkanı”na çevrilmiş bu ərazilərdə tərk edilmiş və dağıdılmış evlərin arasında özünə mövqe seçən erməni hərbçiləri burada müdafiə istehkamları qurublar. 1990-cı illərdən bəri heç də sakitləşməyən münaqişə bu ilin sentyabr ayında yenidən alovlanıb və Azərbaycan işğal altındakı ərazilərini azad edib.

Diqqətə çatdırılır ki, ötən əsrin 90-cı illərində qovulmuş azərbaycanlı köçkünlər təxminən 30 ildən sonra öz torpaqlarına geri qayıda bilərlər. Lakin burada onları dağıntılar və minalanmış ərazilər gözləyir. Həmin minalanmış ərazilər isə hazırda Azərbaycan əsgərləri tərəfindən təmizlənir.

# Cənubi Koreya qəzeti Bakıdakı Zəfər paradından yazır

Cənubi Koreyanın “Naewoeilbo” gündəlik qəzetində “Azərbaycan Qarabağ qələbəsini hərbi paradla qeyd edir” başlıqlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, qəzetin Koreya və ingilis dillərindəki versiyalarında olan məqalədə dekabrın 10-da Bakıda Azadlıq meydanında keçirilmiş paradın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisi olan Qarabağda 44 gün davam etmiş müharibədə Ermənistan üzərində qazanılan qələbəyə həsr olunduğu bildirilib. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, iki ölkənin yüksək vəzifəli rəsmilərinin iştirak etdikləri paradda 2-ci Qarabağ savaşında qələbəni təmin edən qoşun növlərinin və hərbi texnikanın təntənəli keçidi olub.


내외일보
www.naewoeilbo.com
전체메뉴 뉴스 전국 오피니언 연예·스포츠 포토영상
2020-12-17 20:40 (목)
처음으로 | 로그인 | 회원가입 | 모바일웹
뉴스 > 정치사회세계
아제르바이잔, 카라바흐 승전 기념 군사 퍼레이드 개최
이수한 | 승인 2020.12.14 17:35 | 댓글 0
Over 3,000 personnel attended the parade
핫이슈
서울
구로구, 소상공인 생존권 위협하며 대기업 배불리나
인기기사
1 홍진영 잠정결론 '표절 맞다'
2 홍영기, 세금 체납?
3 홍영기 사과, 왜?
4 김유정 출연확정
5 빅죠 활동중단, 몸무게 '충격'
6 김준희 사과, 기부강요 논란?
7 정순주 결혼식연기

Nəşr Prezident İlham Əliyevin paraddakı çıxışında söylədiyi “Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir” fikrinə yer verib. Bundan başqa, Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyə və Azərbaycanın kürək-kürəyə verdikcə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkləri barədə fikirləri də məqalədə əksini tapıb.

Bildirilib ki, parad zamanı Xəzər dənizi sahilindəki iri Azadlıq meydanında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də dənizdə hərbi gəmi və katerlərin nümayişi olub. Paradda, həmçinin 6 həftəlik müharibə zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirilib.

Qeyd olunub ki, 2-ci Qarabağ müharibəsində Azərbaycan Ordusu düşməndən xeyli sayda texnika, silah-sursat ələ keçirib, Azərbaycan Silahlı Qüvvələri “Dəmir yumruq” adlı əməliyyatın gedişində 300-dən çox yaşayış məntəqəsini düşməndən azad edib. Noyabrın 8-də Şuşanın, ertəsi gün isə 70-dən çox kəndin azad edilməsindən sonra Azərbaycan, Rusiya və Ermənistan liderləri tam atəşkəs barədə bəyanat imzalayıblar. Həmin sənədə əsasən, Ermənistanın işğalı altında olan Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz Azərbaycan qaytarılıb.

# “FOX News” kanalının radio proqramında Azərbaycanın Ermənistan üzərində qazandığı qələbədən danışılıb

Məşhur “FOX News” kanalının radio proqramında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovla müsahibə yayımlanıb. Müsahibədə səfir Ermənistanın təxribatına qarşı Azərbaycanın uğurlu əks-hücumundan bəhs edib, Ermənistan tərəfindən 30 ilə yaxın idi ki, işğal olunmuş ərazilərini geri qaytardığını bildirib. O qeyd edib ki, əməliyyat Azərbaycanın beynəlxalq tanınmış sərhədləri daxilində baş verib və Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədləri yoxdur. Ərazilərin işğaldan azad edilməsi ilə həm də BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən 4 qətnaməsinin Azərbaycan tərəfindən yerinə yetirildiyini diqqətə çatdırıb. Hazırda Ermənistanın işğalı nəticəsində tamamilə dağıdılmış həmin ərazilərin dirçəldilməsi, məcburi köçkünlərin geri qaytarılması istiqamətində işlərin aparıldığını qeyd edib. Səfir Azərbaycanla Ermənistan arasında iqtisadi və sosial əməkdaşlığın qurulması, ümumilikdə regionun dirçəlməsinə ümid etdiyini bildirib. Belə ki, ölkələrimizin tərəfdaşları, o cümlədən Qərb dövlətləri əsas diqqəti regionda xalqlarımızın sülh və əmin-amanlıq münasibətlərinin yaradılmasına və davamlı sülh istiqamətində səylərə dəstək verilməsinə yönəltməlidir. Ekstremist ideologiyaların, irqçi, separatçı, dindən sui-istifadə edən fikirlərin regionumuzun inkişafına heç bir faydası olmayacaq. Jurnalistin Azərbaycan ərazisində ermənilərin mövcudluğu ilə bağlı sualına cavab olaraq səfir bildirib ki, çoxmillətli dövlət olan Azərbaycanda müxtəlif xalqların nümayəndələri hər zaman öz mədəni azadlıqlarından sərbəst şəkildə istifadə ediblər. Ölkəmiz və cəmiyyətimiz öz müxtəlifliyi və tolerantlığı ilə fəxr edir.

Səfir jurnalistin “Human Rights Watch” beynəlxalq təşkilatının münaqişə ilə bağlı dərc etdiyi hesabatlara da münasibət bildirib. Azərbaycan hərbi qüvvələrinin guya Şuşa şəhərində ermənilərə məxsus kilsəni atəşə tutması ilə bağlı iddiaya cavab verən səfir qeyd edib ki, Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Azərbaycan Ordusu heç bir zaman kilsələri hədəf almayıb. Kilsənin təsadüf və ya kənarda baş verən partlayış nəticəsində zədələnə bilmək ehtimalını qeyd edən səfir burada heç bir insan tələfatının olmadığını da diqqətə çatdırıb. Əksinə, elə həmin təşkilat tərəfindən də işıqlandırıldığı kimi, Ermənistanın Azərbaycanın mülki şəxslər yaşayan ərazilərinə hücumu zamanı kasetli hərbi sursatlardan istifadə etməsi və onlarla günahsız insanın həlak olmasına diqqət çəkib.

Müsahibənin tam versiyası ilə https://omny.fm/shows/the-fox-news-rundown-1/evening-edition-new-violence-breaks-armenia-azerba internet səhifəsində tanış olmaq mümkündür.

***AZƏRTAC-ın Vaşinqton bürosu***

# Qalib Xalq, Qətiyyətli Sərkərdə, Müzəffər Ordu

## *Tarixi və şanlı Zəfər - dəmir iradənin, yenilməz qətiyyətin, monolit birliyin və Ordumuzun qələbə əzminin nəticəsidir*

***Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi.***
***Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.***

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev***

***Bütöv torpaq bütöv candır, bu can Azərbaycandır. Qırx dörd günlük Vətən müharibəsinin leytmotivi də məhz bu amal oldu.***

Son 50 ilin müharibələr tarixinə fikir versək görərik ki, başlanılan bir çox hərbi əməliyyatlar münaqişələrin sonlanmasına deyil, daha da alovlanmasına gətirib çıxarıb. Amma cəmi 44 gün davam edən Vətən müharibəsi nəinki ərazilərimizin azad edilməsinə, eyni zamanda, işğalçılığa son qoyulmasına, eləcə də 30 ilə yaxın davam edən münaqişənin həllinə gətirib çıxarıb. Bu baxımdan Azərbaycan xalqının bu qələbəsi fövqəladə tarixi əhəmiyyətə malikdir. Bunu təkcə dostlarımız deyil, hətta bizim uğurlarımıza qısqanclıqla yanaşanlar da etiraf edirlər.

İşğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan, 44 gün davam edən və Azərbaycanın tam Qələbəsi ilə nəticələnən Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri uzun illər təhlil ediləcək, bu Qələbənin şanına dastanlar, romanlar və elmi əsərlər yazılacaq.

Buna da tam haqqımız var. Azərbaycan xalqının birliyi, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi, sarsılmaz qətiyyəti, Şanlı Ordumuzun qüdrəti və qəlbi Vətən eşqi ilə dolub-daşan hərbçilərin, eləcə də hər bir azərbaycanlının monolit birliyi sayəsində Azərbaycan xalqı zəfər qazandı.

Tarixi Qələbəmizdən danışarkən bir sıra aspektləri, bir sıra mühüm amilləri nəzərdən qaçırmaq olmaz. Qələbəmizin tarixi əhəmiyyəti və xalqımızın taleyində böyük rolu bütün bu şanlı Zəfərin nəticələri bütün istiqamətlər üzrə təbii olaraq araşdırılacaq, təhlil ediləcək. Eyni zamanda, əminliklə qeyd etmək istəyirəm ki, bu Qələbə ölkəmizin gələcək inkişafına, daha da qüdrətlənməsinə, çiçəklənməsinə, vətəndaşlarımızın rifah halının daha da yüksəlməsinə də əvəzsiz töhfələr verəcəkdir.

Münaqişə başlayan gündən gedən prosesləri daim diqqətlə izləyən, gücü-imkanı daxilində bu proseslərdə iştirak edən bir hərbçi, bir vətəndaş olaraq bu Qələbəmizi səciyyələndirən bir neçə məqam və amillər barədə qısa da olsa öz fikirlərimi oxucularla paylaşmaq istərdim.



Əvvəla onu qeyd etməliyəm, elə bir görüş, səfər, forum, toplantı olmadı ki, Prezidentimiz Qarabağ münaqişəsindən söz açmasın, diqqəti bu münaqişəyə yönəltməsin, bu münaqişənin həllinə ədalətlə yanaşmanı tələb etməsin. Dövlətimizin başçısı da dəfələrlə qeyd etmişdi ki, bizim yeganə məqsədimiz haqq-ədalətin bərqərar olması, işğalçının torpaqlarımızdan çıxarılması və bir milyona yaxın qaçqın və məcburi köçkünün doğma yurdyuvalarına qayıtmasıdır. Bütün haqsızlıqlara, ikili standartlarla yanaşmaya baxmayaraq, Vətən müharibəsinin ədalətli xarakteri danılmazdır. Çünki bütün beynəlxalq normalarda, hüquqi sənədlərdə Azərbaycan ərazilərinin işğal olunması və bu məsələnin respublikamızın ərazi bütövlüyü çərçivəsində həll edilməsi öz əksini tapıb. Lakin bu danışıqlar, sülh yolu ilə məsələ öz həllini tapmadığından xalq özü bu məsələnin həllinə nail olmalı idi. Düşmənin qeyri-konstruktiv, təxribatçı davranışları məsələnin hərbi yolla həllinin qaçılmaz olduğunu ön plana çəkirdi. Bu münaqişənin uzadılması, ədalətli şəkildə həllini tapmaması dözülməz və yol verilməz idi. Bu cür vəziyyətə biganə qala bilməyən dövlətimizin, ölkə başçısının, bu haqq savaşında bizə dəstək verənlərin və döyüşlərə yollananların yeganə amalı, arzusu da məhz tarixi ədalətin bərqərar olması və respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi idi. Qırx dörd günlük Vətən müharibəsində Zəfərimiz sözün həqiqi mənasında tarixi ədalətin bərpasıdır.

Böyük Qələbənin əhəmiyyətindən danışarkən ilk və xüsusi olaraq onu qeyd etməliyik ki, Kürəkçay müqaviləsindən keçən son 200 illik tariximizdə Prezident İlham Əliyev yeganə şəxsiyyət, ilk liderdir ki, itirilmiş, düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsinə və Xalqa qaytarılmasına nail oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yeritdiyi güclü daxili və xarici siyasət, Prezident kimi 17 illik fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər qazandığımız qələbənin baş tutmasında ən önəmli amil olub. Qələbəmizi istəməyən, uğurlarımıza qısqanclıqla yanaşan, düşmən mövqedə olan və düşmənə, işğalçıya açıq-aşkar dəstək verən bu qədər qüvvə qarşısında mətin iradə, yenilməz qətiyyət, dönməzlik nümayiş etdirən, Dövlətimizin, Xalqımızın maraqlarının müdafiəsindən bir addım da geri çəkilməyən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diplomatik uğurlarını, siyasi müstəqilliyini, şəxsi qəhrəmanlığını, mətinliyini, yüksək intellektual səviyyəsini, dərrakəsini xüsusi qürurla, fəxrlə qeyd etmək istərdim. Çünki məhz onun bu müsbət keyfiyyətləri xalqımızın, dövlətimizin başçısının, Prezidentimizin, Müzəffər Ali Baş Komandanımızın, Şanlı Ordumuzun, eləcə də dünyada yaşayan hər bir azərbaycanlının Qələbə, Zəfər sevinci yaşamasının əsas amillərindən oldu.

Vətən müharibəsində Böyük Qələbəmizdən yazarkən qeyd edilməsi vacib olan amillərdən biri də ulu öndər Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən yeni dövrün tələbləri səviyyəsində inamla, uğurla davam edilməsidir. Prezident İlham Əliyevin son illərdə qəbul etdiyi qərarlar, atdığı inamlı addımlar qüdrətli ordu yaratmaq istiqamətində gərək olan bütün zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində ərsəyə gələn nizami Azərbaycan Ordusu dövlətçiliyimizin qarantı olmaqla yanaşı, ölkəmizin dünya miqyasında maraq və mənafeyinin, milli təhlükəsizliyinin lazımi səviyyədə qorunmasını, həmçinin müstəqil siyasət yeritməsini təmin etməyə imkan yaradıb. Həmçinin qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində maddi-sosial və texniki cəhətdən hərtərəfli təchiz olunan, ən müasir silahlarla silahlanmış, dünyanın 50 ən güclü orduları sırasında özünə layiqli yer tutan Azərbaycan Ordusu ərsəyə gəlib. Keyfiyyətli təşkil edilən, səmərəli keçirilən təlimlərdə təcrübə toplayan, peşəkarlığını yüksəldən müasir Ordu, döyüş əməliyyatlarının səriştəli, düzgün, eyni zamanda, hərbin bütün qanunlarına uyğun olaraq planlaşdırması, həyata keçirilməsi və hərtərəfli, planlı şəkildə hazırlıq ölkəmizin döyüş meydanında qələbə qazanmasını səciyyələndirən faktorlardır. Məhz sadaladığımız bu müsbət xüsusiyyətlərin nəticəsi olaraq düşmənin illərlə yaratdığı “məğlubedilməz ordu” mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı. Vətən müharibəsinin ilk günlərindən taktiki üstünlüyü ələ alan Azərbaycan Ordusunun qəlbi vətən eşqi ilə döyünən şəxsi heyəti hər gün yaşayış məntəqələrimizi, strateji yüksəklikləri azad etməklə daha bir uğura, yeni qələbəyə imza atmaqla növbəti günlərdə düşmən üzərində tam üstünlüyə nail oldu. Bununla da şanlı Ordumuz Zəfər Gününün sevincini yaşamağı və haqq-ədalətin bərpasını bizlərə nəsib etdi. Bacarıqlı, təcrübəli komandanlıq altında idarə edilən döyüşlərə atılan cəsur hərbçilərimiz düşmənin illərlə hazırladığı eşelonlaşdırılmış müdafiə xəttini qısa müddətdə yararaq irəliləməyə başladı. Döyüş meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və qənimət kimi ələ keçirildi. Həm canlı qüvvə, həm də döyüş texnikası sardan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi və “Dəmir yumruq” əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı.

Vətən müharibəsinin nəticələrini qiymətləndirərkən qonşu dövlətlər, tərəfdaş olduğumuz, əməkdaşlıq etdiyimiz ölkələrlə səmimi, dostluq və qarşılıqlı maraqları təmin edən münasibətlər quran, eləcə də respublikamızda davamlı inkişafı təmin edən optimal siyasi hakimiyyət sisteminin fəaliyyəti sayəsində dövlətimizin nail olduğu güclü, çoxşaxəli iqtisadi inkişafı və iqtisadi qüdrəti də həlledici faktorlardan biri kimi qeyd etmək lazımdır. Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizdə də inkişaf etmiş hərbi sənaye kompleksinə malik olması zamanın reallığıdır. Eyni zamanda, son illər ərzində ordunun texniki təchizatında da genişmiqyaslı dəyişikliklər baş verib, ən müasir silah sistemləri alınaraq silahlanmaya qəbul edilib. Artıq heç kimə sirr deyil ki, Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə isə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı tərəfindən taleyüklü addımlar atılıb ki, bu-

# Qalib Xalq, Qətiyyətli Sərkərdə, Müzəffər Ordu

*Tarixi və şanlı Zəfər - dəmir iradənin, yenilməz qətiyyətin, monolit birliyin və Ordumuzun qələbə əzminin nəticəsidir*



nun da müsbət nəticələrini 44 günlük Vətən müharibəsində real şəraitdə gördük, şahid olduq. Hamıya məlumdur ki, bütün bu sadaladıqlarımız güclü iqtisadiyyat, dayanıqlı inkişaf və böyük maliyyə resursları olmadan təsəvvür edilə və həyata keçirilə bilməz.

Ancaq bu da danılmaz faktdır ki, Ordu nə qədər güclü, müasir, dəqiq və böyük dağıdıcı gücə malik silahlarla silahlansa da döyüş meydanında sön sözü deyən yenə də insan faktoru, döyüşə atılan insanların Vətən sevgisi və inandığı amal uğrunda gözünü qırpmadan canından keçməyə hazır olmasıdır. Bu mənada Vətən müharibəsində Zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhval-ruhiyyəsidir. Sözün həqiqi mənasında döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik, qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etməsi hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəhlə doldurdu.

Bu Şanlı Qələbənin daha bir xüsusiyyəti odur ki, Xalq öz Ordusunun Komandanını, Prezidentini daha da yaxından tanıdı, Müzəffər Ali Baş Komandan isə xalqın böyüklüyünün və gözəl xüsusiyyətlərinin bir daha şahidi oldu. Xalq dövlətimizin başçısının necə iradəli, qətiyyətli, əzmkar, verdiyi sözü tutan şəxsiyyət olduğuna bir daha əmin olmaqla yanaşı, onun ən yüksək keyfiyyətlərə məxsus vətəndaş, vətənpərvər Ali Baş Komandan, Xalqımızın, Ordumuzun hər qələbəsinə bütün səmimiyyəti ilə ürəkdən sevinən, bu qələbələri böyük coşqu ilə alqışlayan necə sadə bir insan olduğunun da şahidi oldu.

Müzəffər Ali Baş Komandan isə dar gündə, çətin anda dünyanın harasında olmasından asılı olmayaraq hər bir azərbaycanlının həmrəyliyinə, mənfur düşmənə qarşı vuruşmaqda əzmkar, qəhrəman olmağı bacaran, ümumi amal və mənafe naminə öz şəxsi mənafeyini, canını, malını qurban verməyi bacaran, eyni zamanda, ölkəmizin azadlığı, ərazi bütövlüyü naminə umu-küsünü, incikliklərı, siyasi ambisiyaları bir kənara qoyaraq dəmir bir yumruq olaraq dövlət başçısının ətrafında birləşməyi bacaran bir Xalq olduğuna bir daha əmin oldu. Qüdrətli xalqına arxalanan Müzəffər Ali Baş Komandan isə qələbə naminə əlindən gələni inamla etdi, əzmlə, qətiyyətlə davrandı, bütün siyasi-diplomatik təzyiqlərə mətinliklə duruş gətirdi, qalib Sərkərdə oldu və xalqın etimadına sevgisinə, dəstəyinə layiq olduğunu bir daha sübut etdi. Tarixi Qələbəmizin əldə olunmasında və Qarabağın işğalçılardan azad edilməsində bu amilin də əvəzsiz rolu oldu.

Qələbəmizdən söhbət açarkən Türk xalqının, Türkiyə dövlətinin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın mənəvi, siyasi, diplomatik dəstəyini də xüsusi olaraq qeyd etmək lazımdır. Bu dost, qardaş, tərəfdaş dəstəyi də Vətən müharibəsində Qələbə qazanmağımızda böyük rol oynadı və bir millət, iki dövləti bir birinə daha da yaxınlaşdırdı, sıx birləşdirdi. Bundan sonra da elə etməliyik ki, bu dostluq, qardaşlıq, birlik əlaqələri heç zaman qırılmasın, həmrəylik, bağlılıq daima inkişaf etsin, əbədi olsun. Gələcəkdə elə davranaq ki, mənfur düşmənin bu birliyə, bu qardaşlığa xələl gətirməyə gücü çatmasın, imkanı, fürsəti olmasın.

Xalq, Prezident və Ordu birliyi Vətən müharibəsində həlledici rol oynadığından bu amil də daim hörmət və ehtiramla yada salınmalı, anılmalı, xatırlanmalıdır. Ordumuza böyük məbləğdə yardım göstərənlərdən tutmuş, təqaüdünü Orduya yardım fonduna keçirən ağsaqqal, malından keçən iş adamları, sadə insanlar, əsgərə pulsuz siqaret verən satıcı, şəhidin portretini pul almadan ailəsinə çatdıran taksi sürücüsü, yardım kompaniyaları təşkil edən, şəxsi vəsaiti hesabına bazarlıq edərək əsgərlərin görüşünə gedən ayrı-ayrı şəxslər, firmalar, şirkətlər, xaricdə yaşayan azərbaycanlılar, ordumuza maddi və mənəvi dəstək olan qardaş ölkələrin vətəndaşları, hətta sosial şəbəkələrdə Azərbaycan xalqının haqq işinə sözü, yazısı ilə dəstək verənlər də minnətdarlıq hissi ilə xatırlanmalıdır. Bu mənada Xalqımız, Müzəffər Ali Baş Komandan və Azərbaycan Ordusu ən yüksək titullara, ən yüksək təriflərə, ən yüksək təriflərə layiqdir. Əminəm ki, yüz illər ötsə belə yenə də bu üç əsas faktor haqqında həmişə ən xoş sözləri yazanlar, deyənlər dayanmayacaq.

Ən əsası isə xalqımızın qürur, fərəh, fəxr mənbəyi olan şanlı Qələbəmizdən danışarkən Vətən müharibəsində şəhid olan, yaralanan və bu döyüşlərdə mətinliklə iştirak edərək sağ-salamat ailələrinə dönən hərbçilərin əzmkarlığını, cəsarətini və şəxsi rəşadətini də xüsusi olaraq qeyd etmək lazımdır ki, bizlərə, eləcə də gələcək nəsillərə bəxş edilən bu Şanlı Qələbənin, Zəfər Gününün, qürurverici yeni tarixin, qürur mənbəyinin, şanşöhrətin qədir-qiyməti, dəyəri və əhəmiyyəti heç vaxt unudulmasın.

Bu qısa yazıda sadaladığımız və qeyd etmədiyimiz bu və ya digər amillər, məqamlar sayəsində həlledici addımlar atıldı, taleyüklü işlər görüldü ki, nəticədə düşmən məğlub edildi, döyüş əməliyyatları Azərbaycanın tam üstünlüyü ilə başa çatdı. İşğalçı Ermənistan ordusu bütün ərazilərimizdən çıxarıldı, ölkəmizin ərazi bütövlüyü təmin edildi, el-oba həsrətinə son qoyuldu. Cəmi 44 günlük müharibənin şah əsəri olan Şuşanın işğaldan azad edildiyi gün - 8 noyabr tarixi möhtəşəm Qələbəmizin, şanlı Zəfərimizin tarix oldu.

Sözardı: 44 günlük Vətən müharibəsi başlanan gündən Zəfər Paradını izlədiyimiz günə qədər itkilərimizə kədərləndiyimiz kimi, qələbələrimizə, uğurlarımıza sevinərkən, fərəh hissi duyarkən də göz yaşlarımızı saxlaya bilmədik. Öz canları və qanları bahasına bu Qələbə sevincini, Zəfər qürurunu bizə yaşadan, şəxsən tanıdığım və tanımaq şərəfinə nail olmadığım Vətən müharibəsi qəhrəmanları olan şəhidlərimizə, qazilərimizə, müharibə iştirakçılarına böyük hörmət, ehtiram və sevgi hissi ilə qələmə aldığım bu sətirlər Qələbə salnaməmizə kiçik bir töhfə olarsa özümü şanslı və xoşbəxt sayaram.

Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu! Azərbaycan xalqına Eşq olsun! Qarabağ Azərbaycandır!

***İsa İsmayılov,***
***Ehtiyatda olan polkovnik-leytenant***
***Müdafiə Nazirliyi mətbuat xidmətinin əməkdaşı,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## İspaniyanın "La Vanguardia" qəzeti erməni vandalizmindən yazır



İspaniyanın geniş oxucu kütləsinə malik "La Vanguardia" qəzetində adıçəkilən qəzetin Ağdam şəhərinə ezam olunmuş müxbiri Jorju Juan Banyosun "Bir milyon azərbaycanlı öz doğma torpaqlarına qayıtmağı gözləyir" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə diqqətə çatdırılır ki, Ermənistanın 28 il davam edən işğalı Azərbaycan Ordusunun parlaq qələbə qazanması nəticəsində sona çatıb. İşğal edilmiş Azərbaycan torpaqları, eləcə də Azərbaycanın qədim Şuşa şəhəri düşmən tapdağından azad olunub. Bildirilir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz doğma torpaqlarından didərgin salınmış azərbaycanlılar yenidən öz yurdlarına qayıda biləcəklər.

Məqalədə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində kütləvi şəkildə vandalizm aktlarının həyata keçirildiyi, bütün yaşayış binalarının, ictimai iaşə obyektlərinin dağıdıldığı, dini abidələrin təhqir olunduğu təəssüflə qeyd olunur. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 300 şəhər və kəndinin amansız şəkildə barbarlığa məruz qaldığı bildirilir. Vurğulanır ki, işğal olunmuş ərazilərdəki mövcud infrastruktur Ermənistan silahlı qüvvələri və buraya qanunsuz olaraq Suriya və digər ölkələrdən köçürülmüş ermənilər tərəfindən dağıdılıb, bu ərazilərdəki tarixi və dini abidələr məhv edilib, məhsuldar torpaqlar yararsız hala salınıb, Ağdam, Füzuli şəhərləri tanınmaz hala gətirilib.

## Ermənilər Qafanda yolu bağladılar, kütləvi etirazlar başladı



Ermənistanın Sünik bölgəsinin (tarixi Zəngəzur ərazisi) Qafan şəhərində etiraz aksiyası keçirilir. SİA erməni mənbələrinə istinadən xəbər verir ki, qəzəbli kütlə istifadəyə hazır olan və lakin hazırda işləməyən Qafan hava limanının yanındakı yolu bağlayaraq nəqliyyatın hərəkətinə imkan vermir. Aksiyanın səbəbi bölgə ilə həmsərhəd olan Dağlıq Qarabağın Azərbaycan tərəfindən işğaldan azad edilməsindən doğan narahatlıqdır. Bölgə əhalisi Sünikin də Azərbaycana kompensasiya qarşılığında veriləcəyindən qorxur. Etirazçılar səlahiyyətli qurumlardan açıqlama alana qədər yolu bağlı saxlamaq niyyətindədir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə İrəvan kimi Zəngəzurun (Sünik bölgəsi) da Azərbaycanın tarixi torpağı olduğunu bəyan edib. Qeyd edək ki, Ermənistanın müdafiə naziri Vaqarşak Arutyunyan dünən Sünik bölgəsinə gedib.

# Azərbaycan miniatür sənətinin dünya incəsənəti tarixində özünəməxsus yeri var

*"Miniatür sənəti"nin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi ölkəmiz üçün əhəmiyyət kəsb edir*

***Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyəti xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərindir. Belə ki, Muğam sənətinin, Aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, Tar ifaçılığı sənətinin, Azərbaycan kəlağayısının və s. YUNESKO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır.***

Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rolu xüsusidir. Belə bir layihələri həyata keçirən Mehriban xanım Əliyevanın humanizm ideyalarının beynəlxalq aləmdə əks-səda doğurmasının nəticəsidir ki, Ona bu təşkilatın Xoşməramlı səfiri adı verilmişdir. Mehriban xanım Əliyeva Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə, dünya mədəniyyətlərinin mübadiləsi sahəsində xidmətlərinə, həmçinin YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın Xoşməramlı səfiri adına layiq görülüb. Qurulan əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində bir körpü rolunu oynayıb. 2013-cü ildə YUNESKO-nun qeyri-maddi Mədəni İrsin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycan eyni müvəffəqiyyətlə hər iki ildən bir YUNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirib. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2019-cu ildə bu mötəbər qurumun növbəti 43-cü sessiyasına ev sahibliyi etdi. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin YUNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

Belə möhtəşəm əlaqələr YUNESKO ilə Azərbaycan arasında olan dostluq körpüsünün məntiqi nəticəsidir. Bu körpünü möhkəmləndirən Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında əməkdaşlıq genişlənmişdir. Əbəs deyil ki, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilmnəsinə sanballı töhfələrinə görə YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevaya YUNESKO-nun baş direktoru tərəfindən "Qızıl Motsart" medalı təqdim olunub. İrina Bokovanın Onun ünvanına söylədiyi "Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız" ifadəsi Mehriban Əliyevanın bu təşkilatla olan əməkdaşlığının bariz göstəricisidir.

Mehriban Əliyevanın əməli fəaliyyətinin nəticəsi olaraq, Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin YUNESKO çərçivəsində qeyd edilir. Mehriban xanım Əliyevanın YUNESKO-nun mənzil qərargahında Xoşməramlı səfirlərin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu, dünyada təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları da böyük maraqla qarşılanıb.

Həyata kecirilən tədbirlərin davami olaraq UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 15-ci iclasında Türkiyə, Azərbaycan, İran və Özbəkistanın birgə hazırladığı "Miniatür sənəti" nominasiya sənədi müzakirə olunmuş və bu mədəni elementin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında qərar qəbul olunmuşdur. Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması təqdirəlayiqdir. Yaxın və Orta Şərq xalqları incəsənətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənəti tarixində özünəməxsus yer tutur. Çoxmilləttli nominasiya sənədində göstərilir ki, miniatür sənəti təqdim edən dövlətlərin cəmiyyətlərinin sosial və mədəni kimliyinin ayrılmaz hissəsi kimi qəbul edilir. Hər miniatür əsəri tarixi və mədəni irsin mövcudluğuna kömək edir, keçmiş və bu gün arasındakı mədəni bağları gücləndirir və ənənəvi memarlıq, mərasimlər, mədəni hadisələr və gündəlik həyatın bir çox digər sahələrini əks etdirən zəngin vizual məzmunu ilə tarixi sənəd roluna malikdir. Hər zaman olduğu kimi, bu dəfə də Ermənistan Respublikası iclasdan bir neçə həftə öncə təxribat törətməyə cəhd etmiş, UNESCO-ya göndərdikləri müvafiq etiraz müraciətlərində nominasiya sənədində Azərbaycanın Qarabağ ərazisində miniatür sənəti ilə bağlı məsələlərin qeyd edilməsinin guya ki yol verilməz olduğunu iddia etmişlər. Bununla yanaşı, Qarabağ miniatür sənətinin yalnız ermənilərə və xristian irsinə aid olduğunu iddia etmişlər. Azərbaycan tərəfindən beynəlxalq hüququn prinsiplərinə, 2003-cü il Konvensiyanın ruhuna və tarixi həqiqətlərə istinad olunaraq təxribatçı ölkəyə müvafiq olaraq layiqli cavab verilmişdir .

Qeyd edək ki, Yaxın və Orta Şərq xalqları incəsənətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənəti tarixində özünəməxsus yer tutur. Kitab illüstrasiyası kimi yaranıb formalaşan Azərbaycan miniatür sənətinin təşəkkül tarixi qədimdir. Azərbaycan kitab miniatürlərinin qorunub-saxlanmış ilk nümunələri XII-XIII əsrlərə aid edilir. Ümumiyyətlə, miniatür məktəbləri arasında Marağa, Təbriz, Şirvan (Şamaxı və Bakı) miniatür məktəblərinin adını çəkə bilərik. Hazırda dünyanın ən böyük muzey və kitabxanalarında ən dəyərli sənət inciləri kimi saxlanan Firdovsinin "Şahnamə"si və Nizaminin "Xəmsə"si, Sədi və Hafizin, Cami və Nəvainin, Xosrov Dəhləvi və Şərq poeziyasının başqa klassiklərinin Azərbaycan rəssamları tərəfindən zəngin illüstrasiyalarla bəzədilmiş təmtəraqlı əlyazmaları həmçinin xüsusi albomlarda-"Mürəkkə"lərdə toplanmış müstəqil miniatürlər sübut edir ki, Azərbaycan miniatur sənəti XVI əsrin 30-40-cı illərində özünün yüksəliş zirvəsinə çatana qədər uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Əsrləri əhatə edən bu sənət bu gün də yaşayir və inkişaf yolu kecib.

***Zümrüd BAYRAMOVA***




## İqtisadi fəal əhalinin sayı açıqlanıb

Dekabrın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 251,6 min nəfər olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, onlardan 4 milyon 886,2 min nəfərini məşğul əhali təşkil edib.

## Vətən müharibəsi döyüşçüsü: Əsgərlər bir-biri üçün özlərini ölümə atırdılar



Oktyabrın 14-də Füzuli rayonunda kəndlərin yaraqlılardan təmizlənməsi uğrunda gedən döyüşlərdə ayağımdan və qolumdan güllə yarası almışam. Ayağımdan güllə çıxarılıb, qolumdan sinir əməliyyatı edilmişəm. İstər döyüş bölgəsində, istərsə də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında həkimlərin yaralılara münasibətindən çox razıyam. Onlar gecəli-gündüzlü hər bir əsgərin üstündə əsirlər, yaralı döyüşçülərin sağalıb ayağa qalxması üçün əllərindən gələni edirlər. AZƏRTAC xəbər verir ki, bu sözləri Vətən müharibəsində yaralanaraq müalicə alan Elnur Məmmədov deyib.

Qarabağ qazısı daha sonra əlavə edib: "Ordumuzda döyüş əhval-ruhiyyəsi çox yüksək idi. Əsgərlər arasında həmrəylik, birlik, qardaşlıq hökm sürürdü. Ömründə üz-üzə gəlməyən, bir-birini tanımayan döyüşçülər arasında çox isti münasibət var idi. Əsgərlər bir-birilər üçün özlərini ölümə atırdılar. Döyüş meydanında yaralanan yoldaşlarını çıxarmaq üçün öz həyatını təhlükə altında qoyaraq böyük fədakarlıq göstərirdilər. Mən yaralananda döyüş yoldaşım Vahid Abbasov ölümü gözünə alaraq bizi atəş altından çıxardı. Hospitala yerləşəndən sonra xəbər tutdum ki, o, Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub. Belə qəhrəman, fədakar döyüşçünü necə unudasan? Allah ona və bu yolda canını fəda edən bütün şəhidlərə rəhmət eləsin. Qazilərin isə tezliklə şəfa taparaq həyata qayıtmağını arzu edirəm".

## Şəhid atası: Hər dəfə döyüş yoldaşlarından oğlum haqqında eşidəndə böyük qürur hissi keçirirəm



Vətən müharibəsi başlayanda Silahlı Qüvvələrimizin sıralarında 2 övladım - İsmət və Elməddin də ön cəbhədə erməni işğalçılarına qarşı igidliklə vuruşub. Hər dəfə bunu onların döyüş yoldaşlarından, komandirlərindən eşidəndə böyük qürur hissi keçirirəm. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri şəhidin atası, Kürdəmir rayonunun Sor-Sor kənd sakini Hikmət Məmmədov söyləyib.

O deyib: "Əlbəttə müharibə şəhidsiz olmur. İsmət də qəhrəmanlıqla həlak oldu. Şükürlər olsun ki, şəhidlərimizin qanı yerdə qalmadı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımız azad edildi. Bu, bizim üçün təsəllidir".

İsmət Məmmədov 1993-cü ildə Sor-Sor kəndində anadan olub. 2011-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Xidmətdən sonra Bakıda gizirlik kursunda hərbi peşəyə yiyələnib və Tərtər rayonunda hərbi hissədə xidmətə başlayıb. Atasının söylədiyi kimi, bu, oğlunun arzusu idi və arzusuna çatdı. Hələ məktəb yaşlarından, idmanla məşğul olan İsmət məhz hərbçi olmağı qarşısına məqsəd qoymuşdu.

Aprel döyüşlərində də iştirak edən İsmət xüsusi fədakarlığına görə komandirləri tərəfindən mükafatlandırılıb, ona fəxri fərman da verilib. Sonra o, Goranboyda hərbi hissədə xidmətini davam etdirib. Vətən müharibəsi başlayanda ön cəbhədə manqa komandiri olan gizir İsmət Məmmədov bir sıra ərazilərimizin, o cümlədən Suqovuşanın azad olunmasında böyük fədakarlıq göstərib, düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv edib. Oktyabrın 10-da isə gərgin döyüşlərin birində şəhidlik zirvəsinə ucalıb. Hazırda İsmət doğulub boya-başa çatdığı Sor-Sor kənd qəbiristanlığında uyuyur.

İsmətin qardaşı Elməddin də hərbçidir və onunla eyni gündə döyüşlərə qatılıb. Qardaşı ilə fəxr etdiyini söyləyən Elməddin onun döyüş yolunu şərəflə davam etdirir. Məmmədovlar ailəsi üçün İsmətdən qalan yeganə yadigar onun qızı Dənizdir. İsmətin anası Rübabə xanım şəhid oğlunun qoxusunu məhz Dənizdən aldığını söyləyir.

# Kapitulyasiyadan sonrakı Ermənistan: Xaos, böhran, etiraz aksiyaları və...



***Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 30 ilə yaxın davam edən Qarabağ problemini həll etdi və Azərbaycan öz ərazi bütövlüyünə qovuşdu. Münaqişənin tamamilə Azərbaycanın maraqlarına uyğun gerçəkləşməsi Ermənistanda dərin siyasi çatlar yaratdı. Hazırda Nikol Paşinyan öz nüfuzunu tamamilə itirib və Ermənistan vətəndaş müharibəsi ərəfəsinə daxil olub.***

Ermənistan prezidenti A.Sarkisyanın son müsahibələrinin birində bildirdiyi kimi, onun ölkəsi "təkcə döyüş meydanında deyil, demoqrafik, informasiya və diplomatik mü-



haribədə də Azərbaycana uduzub". Başqa sözlə, artıq ermənilər özləri də anlayır və etiraf edirlər ki, Azərbaycanla savaşmaq gücündə deyillər. Kənar dövlətlərin himayəsi və yardımı olmazsa, Ermənistanın bir dövlət kimi mövcudluğu sual altına düşə bilər.

Müharibəni başlayan, sonda isə kapitulyasiya sənədinə imza atmaqla biabırçı məğlubiyyətə uğrayan işğalçı Ermənistan hazırda öz tarixinin ən ağır günlərini yaşayır. İqtisadiyyat tam çöküb, ölkənin xarici borcu artıb, əhalinin sosial təminatı sahəsində fəlakətli durum yaranıb. Cari il üzrə Ermənistanın hərbi istiqamətdə xərcləri 716 milyon ABŞ dolları kimi təsdiq olunub. Ancaq Ermənistan cəmi 44 gündə 1 il ərzində hərbi istiqamətdə əlavə olunacaq dəyərdən 5,3 dəfə çox hərbi ziyana uğrayıb. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən Ermənistanın məhv edilən və ya qənimət kimi götürülən hərbi texnikasının dəyəri minimum qiymətləndirmə ssenarisi əsasında ən azı 3,8 milyard dollar dəyərindədir. Bu baxımdan, hərbi xərcləmələr üzrə hesablamalar və iqtisadi göstəricilər Ermənistanın hazırkı hərbi büdcəsinin xərc istiqamətləri vasitəsilə hərbi infrastrukturu bərpa etməsinə təxminən 38 il vaxt lazım olduğunu göstərir.

Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatlarında da qeyd olunduğu kimi, "dalana dirənmiş" bu ölkə enerji, nəqliyyat, logistik və kritik infrastrukturun fəaliyyəti üzrə üçüncü ölkələrdən tamamilə asılı vəziyyətə düşüb. Müharibənin elə ilk günündən etibarən "Hayastan" və digər fondlar vasitəsilə Ermənistan üçün "humanitar yardım" toplanması da işğalçı dövlətin resurs müharibəsindəki zəifliyinə nümunədir. Bu, həm Ermənistanın Azərbaycanla müharibə aparma potensialının yoxluğunu, həmçinin adi şərtlər altında bu ölkənin heç bir müstəqil iqtisadi və hərbi gücə malik olmadığını göstərir.

Eyni zamanda, ağır sosial-iqtisadi vəziyyət ölkəni demoqrafik fəlakətlə üz-üzə qoyub. Ermənistanın Milli Statistika Xidmətinin məlumatında bildirilir ki, cari il yanvarın 1-nə olan məlumata görə, Ermənistanın daimi əhalisinin sayı 2 milyon 959,7 min nəfər təşkil edib. 2019- cu ilin əvvəli ilə müqayisədə ölkə əhalisinin sayı hazırda 5,6 min nəfər, yaxud 0,2 faiz azalıb. Mütəxəssislər və ekspertlər hesab edirlər ki, Ermənistan əhalisinin sayı növbəti illərdə daha da azalacaq.

Buna səbəb olaraq ölkədə yoxsulluğun səviyyəsinin artması, iqtisadiyyatın çökməsi kimi dəlillər göstərilir. Bildirilir ki, hazırda Ermənistanın xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizindən çoxdur. Bu isə ölkə iqtisadiyyatının tənəzzülü deməkdir.

Artıq bu, bir reallıqdır ki, Ermənistanın müharibədə məğlubiyyəti, eləcə də ölkənin sosial-iqtisadi şəraitinin daha da ağırlaşması baş nazir N.Paşinyanı ictimaiyyətdən tamamilə təcrid edib. Hətta öz komandasından bir çoxu ondan üz çevirib. Elə bu günlərdə keçirilən rəy sorğusu da baş nazirin nüfuzunun daha sürətlə aşağı düşdüyünü növbəti dəfə göstərib. "Gallup" Beynəlxalq Assosiasiyasının Ermənistandakı ofisinin nümayəndəsi Aram Navasardiyan bildirib ki, Ermənistan vətəndaşlarının təxminən 80 faizi baş nazirin istefasını tələb edir. Ermənistan KİV-nin məlumatına görə, bu ölkənin Xüsusi İstintaq Xidməti Nikol Paşinyana və bir qrup yüksək vəzifəliyə qarşı cinayət işi başlayıb.

Ermənistanın hərbi məğlubiyyətinin ən acı nəticəsi məhz bu gün yaşadığı siyasi-iqtisadi böhran, ictimai-siyasi mühitin qarşıdurması, ümummilli depressiya və aqressiyadır. İkinci Qarabağ müharibəsində Ermənistanın kapitulyasiya elan etməsindən sonra ölkədə etiraz aksiyaları baş qaldırıb.Hüquq-mühafizə orqanları əməkdaşları İrəvanın Azadlıq meydanında keçiriləcək mitinqdə iştirak etmək istəyən fəalları kütləvi şəkildə saxlamağa başlayıb. Bildirilib ki, polis heç bir əsas göstərmədən insanları həbs edir. N.Paşinyan ona müxalif mövqedə dayanan şəxsləri davamlı şəkildə siyasi repressiyalara məruz qoyur. Ermənistanda N.Paşinyanla sabiq iqtidar təmsilçiləri arasında qarşıdurmanın miqyası getdikcə daha da artır. Sabiq prezidentlər, müxalif partiyalarının təmsilçiləri və xaricdəki ermənilər Paşinyan iqtidarının daxili və xarici siyasətini indi daha sərt formada tənqid edirlər.

Hazırda müharibədə sarsıdıcı məğlubiyyətə uğrayan N.Paşinyan iqtidarı ölkə daxilində baş qaldıran narazılıq və xalq qəzəbini söndürmək üçün amansız repressiyalara başlayıb. Ölkəsini fəlakətə sürükləyən Paşinyan onu ittiham edən bütün müxalifət nümayəndələrini həbsə atdırır, onları təzyiqlərə və təhdidlərə məruz qoyur. Ölkədə media sərt senzura şəraitində fəaliyyət göstərir, QHT-lərin fəaliyyəti tam məhdudlaşdırılıb. Bu gün ölkədə baş verənlərin gizlədilməsi üçün hakimiyyəti, hətta bələdiyyələri belə tənqid edənlərə 1200 avro cərimə tətbiq olunur.

Göründüyü kimi, işğalçı ölkədə mövcud vəziyyət olduqca acınacaqlıdır. Bütün sadalananların üstünə müharibənin yəcavüzkar ölkənin iqtisadiyyatına vurduğu zərəri də gəldikdə deyə bilərik ki, Ermənistandakı vəziyyət bundan sonra daha da ağırlaşaraq idarəolunmaz həddə çatacaq.

***Yaqut Ağaşahqızı***

# "Vaşinqton Türkiyə ilə əməkdaşlığa məcburdur"



***"Vaşinqton Yaxın Şərq diplomatiyasında Türkiyə ilə əməkdaşlığa məcburdur. Çünki Birləşmiş Ştatların regiondakı digər müttəfiqləri Türkiyə qədər faydalı ola bilməz". Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.***

Politoloqun sözlərinə görə, ABŞ-ın Türkiyəyə qarşı sanksiyaları S-400 və Ankara-Moskva əməkdaşlığı ilə bağlıdır: "İki mərhələli sanksiyalar Rusiya ilə əməkdaşlığın dayandırılmasına hədəflənib. Lakin belə sanksiyalar Türkiyəni müstəqil və regional siyasətindən çəkindirməyəcək. Konqres və Pentaqon tərəfindən Milli Təhlükəsizlik Strategiyası kimi dəyərləndirilən bu məsələ Türkiyənin maraqlarına ziddir. Ağ Ev Ankaranın müstəqil xarici siyasət aparmasından narahatdır və Rusiya ilə bunca yaxınlaşmasını Amerika öz maraqlarına zidd hesab edir.

Düşünürəm ki, Trampın hakimiyyətdən gedəcəyi bir ərəfədə bu cür sanksiyalar Türkiyə-ABŞ münasibətlərinə zərbə vurmağa hesablanıb. Konqres və Pentaqonda müəyyən qrupların Türkiyəyə qarşı olması belə ədalətsiz qərarların davam etməsinə gətirib, çıxara bilər. Səbəb kimi Türkiyənin Aralıq dənizi və Yaxın Şərqdə maraqlarını qoruması da göstərilir. Türkiyədəki müəyyən şəxslərə də sanksiya tətbiq olunub.

Vaşinqtona verilən isti mesajlardan biri də, Türkiyənin ABŞ-dakı səfirinin yenisi ilə əvəzlənməsi idi. Bu müstəvidə Vaşinqton nə edir? Biz görürük ki, ABŞ PKK-nın bir qolu olan YPQ-yə pulsuz silahlar verir. Vaşinqtonun anti Türkiyə siyasəti indi də qardaş ölkənin HHM sistemlərinə tuşlanıb. Ona qalsa, sanksiyalar, ilk növbədə, Yunanıstana istiqamətləndirilməli idi. Çünki Afina hələ illər öncə, Rusiyadan S 300 komplekslərini almışdı, amma Yunanıstana sanksiya tətbiq olunmadı. ABŞ bu ikili standarlarla Türkiyəni "Vaşinqton orbiti"ndə saxlamağa çalışır".

Məhəmməd Əsədullazadə düşünür ki, Ərdoğanın başçılığı ilə Türkiyə çox güclənib və özündə regional oyunçu-beynəlxalq vasitəçi sistemini formalaşdırıb: "Məncə, Bayden hakimiyyətə gələndən sonra Vaşinqton-Ankara münasibətlərində normallaşma müşahidə olunacaq. Bildiyimiz kimi, Baydenin siyasi görüşləri Rusiyaya qarşı olsa da, Yaxın Şəqdə o, Türkiyənin siyasətini dəstəkləyən mövqeyə sahibdir. Ümumiyyətlə, ABŞ Yaxın Şərq siyasətində Türkiyə ilə əməkdaşlığa məcburdur, çünki Bayden də anlayır ki, onların digər regional müttəfiqləri (İsrail, Səudiyyə Ərəbistanı) Ankara qədər faydalı ola bilməz".

***Ceyhun Rasimoğlu***

# Ermənilər Qafandan niyə qaçır?



***Ermənilər Qafan şəhərinin Azərbaycanla sərhəd olacaq ərazisini tərk etməyə hazırlaşır. SİA erməni mediasına istinadən xəbər verir ki, erməni əhalisi evlərini sökür, eləcə də müdafiə istehkam qurğularını dağıdırlar. Kəlbəcərdə, Ağdamda və Laçında etdikləri kimi özlərindən sonra heç nə qoymaq istəmirlər. Buna səbəb Qafan şəhərinin bir hissəsinin Azərbaycanla dövlət sərhədi olacağıdır.***

Ermənistan işğal dövründə dövlət sərhədini qanunsuz irəli çəkərək, Qafan, Gorus kimi şəhərlərini sərhədyanı ərazidən uzaqlaşdırıb, eləcə də Zəngilan, Qubadlı və Laçın kəndlərini Ermənistanın ərazisinə daxil edib.

Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövlət sərhədini BMT tərəfindən qəbul edilmiş xəritəyə uyğun yenidən qurur. Beləliklə, Ermənistan əvvəlki mövqelərinə geri çəkiləcək və Qafan şəhəri sərhədyanı ərazi olacaq. Bununla yanaşı, ermənilərin ötən il böyük investisiya yatıraraq, yenidən inşa etdiyi Qafan hava limanının bir hissəsi də Azərbaycanın dövlət sərhədinin tərkibinə daxil olacaq. Bu bölgədə məskunlaşdırılan ermənilər artıq ərazini tərk edir. Bu gün Qafanda etiraz aksiyası da keçirilib. Lakin artıq dövlət sərhədinin beynəlxalq hüquqa uyğun qurulması istiqamətində intensiv işlər aparılır və Ermənistanın işğal dövründə öz sərhədləri tərkibinə daxil edilən bütün ərazilər qaytarılacaq.

# Daha 5 siyasi partiya ofislə təmin olundu



Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, normal fəaliyyətin təmin edilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təmin olunması prosesi davam etdirilir. SİA xəbər verir ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti 16 dekabr tarixində daha 5 siyasi partiyaya ofis sahələrinin açarlarını təqdim edib. AĞ Partiya, Böyük Azərbaycan Partiyası, Milli Vəhdət Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Milli Həmrəylik Partiyası fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

Beləliklə, Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən son günlərdə artıq 10 siyasi partiya qeyri-yaşayış sahəsi ilə təmin olunub. Yaxın vaxtlarda digər siyasi partiyalara da ofis sahələrinin verilməsi nəzərdə tutulur.

# Məsuliyyətsizlik koronavirusun geniş yayılması riskini artırır

***Son aylarda bəşəriyyət misli görünməmiş bir bəla ilə üz-üzə qalıb. Ümumbəşəri bəlaya çevrilmiş qorxulu koronavirus pandemiyası səbəbindən dünya durğunluq və tənəzzül dövrünü yaşayır. Yer kürəsinin başı üzərini bürüyən qorxunc COVID-19 bəlası hələ uzun illər unudulmayacaq. Sürətlə yayılan xəstəlik qarşısında elm, müasir texnologiya da aciz qalıb. Son günlər bir qədər sevindirici xəbərlər alsaq da, bu müəmmalı durumun nə qədər çəkəcəyi, nə vaxt tam bitəcəyi hələlik sual olaraq qalır. Dünya səhiyyəsi həndəsi silsilə ilə artan koronavirus xəstəliyinin qarşısında aciz qaldığından insan ölümlərinin sayı da minlərlədir.***



Qeyd edək ki, məhz COVID-19 virusuna yüksək yoluxma dinamikası qeydə alındığından Azərbaycanda virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun noyabrın 21-dən etibarən ölkə ərazisində xüsusi karantin rejiminin müddəti uzadılaraq epidemiya ilə mübarizə tədbirləri daha da gücləndirilib.

### Təyyar Eyvazov: "Epidemioloji vəziyyət pisləşməkdə davam edir"

Sözügedən məsələ ilə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, ölkəmizin baş infeksionisti Təyyar Eyvazov bildirib ki, aparılan karantin tədbirlərinə baxmayaraq, təəssüflə qeyd olunmalıdır ki, epidemioloji vəziyyət son həftələr pisləşməkdə davam edir. Vəziyyəti pisləşdirən hallar ondan ibarətdir ki, özündə xəstəliyin olduğunu bilən və ya ən azı güman edən, xəstələrlə təmasda olan şəxslər də özlərini təcrid qaydalarına etinasız yanaşaraq həm yaxınlarını, həm də evdən bayıra çıxmaqla digərlərinin həyatını təhlükəyə atırlar.

T.Eyvazov bildirib ki, virusa yoluxmuş və xəstələnmiş insanların böyük əksəriyyəti xəstəliyi yüngül keçirir və bu da xəstəliklə bağlı məsuliyyətsiz yanaşmalara yol açır: "Koronavirusa yoluxan insanlar mütləq həkim məsləhətinə əməl etməli və qeyri-peşəkar məsləhətlərdən yayınmalıdırlar. Evdə müalicə alan xəstələr qoruyucu tədbirlər barədə poliklinik həkim və tibb işçiləri ilə danışa bilərlər".

Onun sözlərinə görə, qoruyucu tədbirlər barədə təcili tibbi yardıma müraciət etmək xidmətin və onun əlaqə vasitələrinin izafi yüklənməsinə səbəb olur: "Təcili yardıma yalnız davam edən yüksək qızdırma, xəstənin vəziyyəti qəfil pisləşən zaman, boğulma halları və s. zamanı müraciət edilməlidir".

"Koronavirusla yoluxma hallarının artımı gözlənilən idi. Əslində artımın özü yox, onun səviyyəsi bizi daha çox narahat etməlidir",- deyən T.Eyvazov bildirib ki, əhatə olunduğumuz ölkələrdə də bu, bir qədər əvvəl baş verib: "Bu səbəbləri şərti olaraq iki qrupa ayırmaq olar. Birinci qrup səbəblər təbiidir, yəni günəş şüalarının ekspozisiyasının azalması, havanın temperaturunun aşağı düşməsi və dəyişkən olması nəticəsində insanlar daha az hallarda açıq məkanlarda olurlar, toplaşdığı bağlı yerlərdə təmaslar artır, otaqlarda soyuq olduğu üçün havalandırmaya riayət olunmur. İnsanlar havaya uyğun düzgün geyim seçməkdə çətinlik çəkirlər, nəticədə tərləyir və ya soyuqlayırlar. Həmçinin soyuq havada yuxarı tənəffüs yollarının infeksiyalara qarşı müqaviməti bir qədər zəifləyir və s. İkinci qrup səbəblər isə bizim üçün daha əhəmiyyətlidir. Çünki bunlar korrektə oluna bilər və əhalinin davranışı ilə sıx bağlıdır. Yəni, burada qeyd olunan maskanın taxılması, sosial məsafənin gözlənilməsi, təmasların azaldılması, respirator gigiyena qaydalarına əməl olunmasıdır".

Həkim qeyd edib ki, son zamanlar qaydalara o qədər də ciddi riayət olunmur: "Qeyd olunduğu kimi neqativ dinamika izlənməkdədir. Hesab edirəm ki, proses nəzarət olunandır və istənilən hallarda vəziyyətə uyğun adekvat qərarlar verilə bilər. Bu qərarlar Operativ Qərərgah tərəfindən qəbul olunaraq tətbiq edilir. Mənfi dinamikanın aradan qaldırılması ilə bağlı xeyli təcrübə toplanılıb. Son vaxtlarda yoluxanların sayının bir müddət az olması əhalidə arxayınlıq yaradıb. Maska taxanların sayı azalıb, əhalinin daha çox toplaşdığı yerlərdə sosial məsafə gözlənilmir. İctimai nəqliyyatda eyni hallar müşahidə olunur . Buna görə də əhali ilə maarifləndirmə işləri aparılmalı, bu qaydalara əməl olunmasına nəzarət ciddiləşdirilməlidir. İnsanlarımıza müraciət edərək demək istərdim ki, bu qaydalara birgə əməl etməklə biz yoluxmaların sayını azalda bilərik və bu da bizim dövlətimizə bütün səyləri Qarabağ istiqamətində cəmləşdirməyə imkan verər. Vətəndaşlar qeyd olunan qaydalara ciddi əməl etməli, təmasları, xüsusilə hərbçilərlə sıx təmasları minimuma endirməlidir. Özünü narahat edən insan müvafiq şikayətlər olarsa, tibbi yardım üçün vaxtında müraciət etməlidir. Başa düşmək lazımdır ki, Ordumuzun döyüş qabiliyyəti əsgər və zabitlərimizin sağlamlığından asılıdır. Bu baxımdan onlara maddi və mənəvi dəstək olaq, lakin koronavirusu unutmayaq".

### Kimlər yüngül koronavirus xəstələri hesab olunur?

Baş infeksionist Təyyar Eyvazov bu sualı açıqlayaraq bildirib ki, hazırda hər beş adamdan yalnız birində virusun ağır və çox ağır formaları inkişaf edir, qalanları xəstəliyi yüngül və orta yüngül olaraq xəstəlik keçirirlər: "COVID-19 virusuna yoluxan yüngül xəstələr evdə müalicə oluna bilər. Yüngül xəstələr - boğazı ağrıyan, qızdırması, öskürəyi, respirator əlamətləri olan şəxslərdir. Lakin onlarda pnevmaniya inkişaf etməyib. Adətən, xəstəliyin birinci həftəsində bu simptomlar müşahidə olunur, şəxs virusa yoluxubsa, artıq ikinci həftədən etibarən virus aşağı tənəffüs yollarına keçir və ağciyəri zədələyir.

İlkin simptomlar olan, yaşı 65-dən aşağı, heç bir xroniki xəstəliyi olmayan şəxslər evdə müalicə ala bilərlər. Lakin bunu həkim təyin etməlidir".

Baş infeksionistin sözlərinə görə, COVID-19 və digər respirator virus infeksiyaları eyni simptomlarla başlayır: "Bu xəstəlikləri bir-birindən ayırmaq çox çətindir. Özündə simptomları müşahidə edən şəxs, evdə qalmalı, özünü təcrid etməli və yaşadığı ərazi üzrə həkimlə əlaqə saxlamalı, yalnız həkimin məsləhəti ilə evdə müalicəyə başlamalıdır. Ev şəraitində müalicə yalnız həkim tövsiyəsi ilə aparılmalıdır. Eyni müalicə üsulü hər kəsdə effektiv olmur. Xəstəliyin ağırlıq dərəcəsi, yoluxan şəxsin yan xəstəlikləri, simptomlar nəzərə alınaraq, həkimlər, demək olar, hər kəs üçün individual müalicə yolu seçirlər. COVID-19 çoxkomponentli xəstəlik olduğuna görə, yalnız həkim təyinatı ilə müalicə aparmaq lazımdır, əks halda apardığınız müalicə fəsadlara səbəb ola bilər".

Baş infeksionist onu da bildirib ki, bəzi şəxslər COVID-19 virusuna yoluxsa da, onlarda simptomlar müşahidə olunmur və ya az müşahidə olunur, lakin bu şəxslər yenə də virus daşıyıcısıdırlar və başqa insanları yoluxdura bilərlər: "Nəzərə almaq lazımdır ki, virusun göstəricisi kimi xəstələnmə bir variantdır və aysberqin görünən hissəsidir, adətən, insanlarda az simptomlar və ya simptomsuz hal müşahidə olunur. Buna görə də düzgün gigyenik qaydalara əməl etmək, az simptom hallarında belə özünü təcrid etmək lazımdır"

T.Eyvazov COVID- 19-a qarşı mübarizədə bəzi qaydalara əməl etməyin vacibliyini vurğulayıb: "Virusdan qorunmaq üçün olan qaydalara əhalinin əksəriyyəti əməl etsə də, cərimələr göstərir ki, hələ də buna laqeyd yanaşan insanlar var. Lakin, bir şeyi nəzərə almaq lazımdır ki, bir il əvvəl soyuqdəymə deyib, ev şəraitində müalicə olunurduq. Heç kəs soyuqladığına görə həkimə müraciət etmirdi, belə bir tələb də yox idi. Hətta xəstə halda, ictimai yerlərə, dərsə, işə gedirdik. Lakin indi çox diqqətli olmaq lazımdır, əvvəldə də qeyd etdiyim kimi, soyuqdəymə və COVID-19 simptomları bir-birinə çox bənzədiyinə görə, özündə narahatlıq hiss edən şəxs dərhal tədbirlər görməli, özünü təcrid etməli və həkimlə əlaqə saxlamalıdır. Hər şəxs özünü qorumalıdır. Təəssüf ki, virusdan qorunmaq üçün daha etibarlı, effektiv qaydalar icad olunmayıb, sadə gigiyenik qaydalara əməl etmək laızmdır. Fiziki məsafənin gözlənilməsi, maskadan düzgün istifadə, respirator gigiyena - asqırdıqda, öskürdükdə ağızın dəsmal və ya dirsək bükümü ilə örtülməsinə riayət etmək lazımdır"

**RƏFİQƏ HÜSEYNOVA**



## Putin: "Ərdoğan - sözünün üstündə duran insandır"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan - sözünün üstündə duran insandır. Əgər o fikirləşirsə ki, bu, onun ölkəsi üçün sərfəlidir, o halda işin sonunadək gedəcək. AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin bunu Moskvada dünən təşkil olunan mətbuat konfransında bəyan edib. O qeyd edib ki, bəzi hallarda Türkiyə Prezidenti ilə ayrı-ayrı məsələlərdə baxışları ziddiyyət təşkil edir. Rusiya Prezidenti deyib: "Bizim baxışlarımız bəzi hallarda ziddiyyət təşkil edə bilər. O, sözünün üstündə duran insandır. Əgər o fikirləşirsə ki, bu, onun ölkəsi üçün sərfəlidir, o halda işin sonunadək gedə bilər. Bu, qarşındakı insanın kim olmasını başa düşmək üçün çox mühümdür".

V.Putin qeyd edib ki, siyasətdə rahat, xoş tərəfdaşlar anlayışı yoxdur. Rusiya dövlətinin başçısı vurğulayıb: "Onların hamısı ölkələrinin qarşısında duran məsələlərin həllinə tuşlanıblar. Milli maraqlar mövcuddur. Haradasa kompromisə getmək, haradasa təkidlə öz mövqeyimiz üzərində dayanmaq lazım gəlir".

## Bir qrup şəhid ailəsi və müharibə iştirakçısı işlə təmin edilib



Şəhid ailəsi üzvlərinin və müharibə iştirakçılarının məşğulluğunun təminatına əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi Proqramı çərçivəsində də dəstək göstərilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentiyi tərəfindən həmin proqram çərçivəsində işəgötürənlərlə bağlanmış müqavilələr əsasında artıq 125 nəfər şəxsə işlə təmin edilmək üçün göndəriş verilib.

Nazirlikdən SİA-ya verilən məlumata görə, onlardan bir hissəsi Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və həmin müharibənin iştirakçılarıdır. Göndəriş verilənlərdən 24-ü ilə əmək müqaviləsi bağlanıb, qalanları ilə qısa müddətdə müqavilələr bağlanacaq. Proqramda iştirak etmək üçün son günlərdə 58 işəgötürən müraciət edib. "Məşğulluq" altsisteminə vakansiyalar yerləşdirən, müəyyən edilmiş prioritet iqtisadi sahələr üzrə vakansiyası olan həmin işəgötürənlərdən artıq 35-i ilə müqavilə imzalanıb. İşəgötürənlərin proqrama müraciətləri, həmçinin onlarla müqavilələrin imzalanması, göndəriş verilmiş şəxslərlə əmək müqavilələrinin bağlanması prosesi davam edir.

Qeyd edək ki, bu proqram əsasında göndəriş verilmiş və işəgötürənlər tərəfindən işlə təmin edilən şəxslərin əməkhaqqının bir hissəsinin Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulub. Proqram üzrə göndərişlərin verilməsi zamanı şəhid ailəsi üzvlərinə, müharibə iştirakçılarına, əlilliyi olan şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və bir ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə üstünlük verilir. İşəgötürənlər proqrama https://forms.gle/2kkhuMqDUHUuSjtB6 linkinə daxil olaraq müraciət edə bilərlər.

# "Human Rights Watch" ədalət meyarının mövcudluğunu etiraf edir

***44 günlük müharibə həqiqət anı kimi dəyərləndirildi. Kimin haqqın, kimin şərin, kimin dostun, kimin düşmənin yanında olduğu bir daha açıqlandı. Bununla yanaşı, müharibədən əvvəlki dövrdə hər zaman Azərbaycana qarşı qərəzli mövqedə dayanıb Ermənistana dəstək funksiyasını yerinə yetirən bəzi beynəlxalq hüquq müdafiə təşkilatları 44 günlük müharibədən sonra beynəlxalq hüququn mövcudluğunu qəbul etməyə məcbur oldular. İkinci Qarabağ müharibəsi Azərbaycanın siyasi Qələbəsi olmaqla yanaşı, bu günə qədər mövcud olub, amma maraqların arxasında əriyən ədalət, beynəlxalq hüquq terminlərinin yenidən gündəmə gəlməsini aktuallaşdırdı. Çünki bu Qələbə Azərbaycanın illərdir gözlədiyi beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqinə nail oldu və dünyanın xarici siyasətini yenidən formalaşdırdı. Bu reallıq dünyanın əksər dövlətlərinin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların diqqətinə çatdırıldı ki, bugünədək yaşanan hüquq probleminin yaratdığı çətinliklərə diqqət yetirmək və bundan nəticə çıxarmaq gərəkdir.***




Azərbaycan daim istər demokratik islahatlar, istərsə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşmada dünyanın ikili siyasəti ilə üzüzə qalmışdır. Diqqət çəkən məqam əksər dövlətləri təmsil edən beynəlxalq hüquq müdafiə təşkilatlarının Azərbaycanı "qeyri-azad", Ermənistanı isə "azad" ölkələr sırasında qeyd etmələridir. Hər zaman vurğulandığı kimi, "Freedom Hause" kimi təşkilatlar Dağlıq Qarabağı Azərbaycanla Ermənistanın müştərək ərazisi kimi təqdim edib. Belə olan təqdirdə həmin təşkilatlardan ədalətli mövqe gözləmək nə dərəcədə real görünə bilər?

Bu gün ədalətli hesabatları ilə diqqət çəkən "Human Rights Watch" beynəlxalq insan haqları təşkilatı da daim ölkəmizə qarşı qərəzli mövqeyi ilə diqqət çəkib. Təşkilat gah Azərbaycanda insan hüquqlarının kobud şəkildə pozulmasından, gah da mətbuat azadlığının boğulmasından bəhs edirdi. Hətta Vətən müharibəsinin davam etdiyi dövrlərdə təşkilat mütəmadi olaraq Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirərək guya bu müddətdə klastr sursatlarına əl atdığını bildirirdi. Dövlətimizin başçısı İlham Əliyev 44 gündə 30-a yaxın xarici mətbuata müsahibələrində daim bildirirdi ki, həqiqətlərə ədalətli yanaşma vacibdir. Bunun üçün baş verənləri düzgün dəyərləndirmək vacibdir.

Reallıq bu idi ki, Ermənistan üç dəfə əldə olunan atəşkəs razılaşmasını kobud şəkildə pozaraq iki dəfə Gəncəni, bir dəfə Bərdəni raket atəşinə tutdu. Ermənistan faşist siyasətinə sadiqliyini bir daha nümayiş etdirdi. İşğalçı dövlətin bu addımları dünya birliyinə, xüsusilə danışıqlar çağırışı edən dövlətlərə hörmətsizlik kimi dəyərləndirildi. Bu dəyərləndirmə ədalət meyarını, beynəlxalq hüququn norma və prinsiplərini əsas tutanlara xasdır. Amma dünya illərdir bu meyarları maraqları arxasında əritdiyindən Ermənistanın atəşkəs sazişini pozmasını hörmətsizlik kimi yox, beynəlxalq səviyyədə qəbul olunan "prinsiplər" kimi qəbul etdi. Belə olmasaydı işğalçı dövlətin beynəlxalq hüquq çərçivəsində qadağan edilmiş silahlardan istifadəsini normal hesab etməz, törətdikləri terror aktlarına yerində və zamanında münasibət bildirərdilər. Beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan Ermənistana "gözün üstə qaşın var" deyilməDiyi üçün Azərbaycanın yaşayış məntəqələrini, mülki şəxsləri raket atəşinə tutaraq insanlığa qarşı cinayətlərini dünyanın göz qarşısında davam etdirirdi. Ermənistanın bu təxribatları beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə Konvensiyanın ciddi şəkildə pozulması, insanlığa qarşı böyük cinayətdir.

Dövlətimizin başçısı İlham Əliyev 44 günlük müharibə dövründə xalqa müraciətlərində bir daha diqqəti dünyanın hüquq problemini yaşamasına yönəldərək bildirmişdir ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq problemi yaşanır.

30 ilə yaxın dövrdə, həmçinin 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bu reallıqlar qabarıq şəkildə özünü büruzə verirdi ki, bəzi dairələr ədalətsizlikdən ideoloji və təbliğat vasitəsi kimi istifadə etməyə çalışırlar. Azərbaycan 28 ildir XX əsrin ən dəhşətli faciəsi olan Xocalı hadisəsini dünyaya soqırımı kimi qəbul etdirmək üçün diplomatik mübarizə aparır. Erməni vəhşiliyinin ən yüksək, insanlığa sığmayan forması olan bu faciəyə biganə yanaşan əksər dövlətlərin heç bir araşdırma aparmadan qondarma "erməni soyqırımı"nı tanıması, ölkəmizlə bağlı hansısa ədalətsiz, heç bir əsası olmayan qətnamənin qəbuluna səy göstərməsi birmənalı qarşılana bilməz. ABŞ Konqresi hər il demokratiyaya dəstək adı altında Ermənistana və qondarma "Dağlıq Qarabağ respublikası"na maddi yardım ayırır və onun həcmi ilbəil artırılır. Bir məqamı da qeyd etmək yerinə düşər ki, ABŞ Konqresi erməni diasporunun apardığı yalan təbliğatı əsas tutaraq 1992-ci ildə Azərbaycana qarşı "Azadlığı müdafiə aktı"na ədalətsiz 907-ci düzəlişi əlavə etmişdir. Həmin düzəlişə əsasən Azəbaycan işğalçı, Ermənistan işğala məruz qalan tərəf kimi təqdim olunurdu. Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti, həmçinin 2001-ci il 11 sentyabr terror aktı ABŞ hökumətinin ölkəmizə qarşı siyasətində dəyişikliklər etməsini şərtləndirdi. Belə ki, həmin il qeyd olunan qərarın ədalətsizliyi təsdiqlənərək fəaliyyətinin bir illik dondurulması ilə bağlı qərar qəbul olundu. Bu günədək qərarın birdəfəlik ləğvi müşkülə çevrilsə də, hər il fəaliyyətinin birillik dondurulması barədə qərar yenidən təsdiqlənir.

Bunları qeyd etməklə belə bir reallığı bir daha diqqətə çatdırırıq ki, ermənilərin başına daim dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar sığal çəkib və işğalçılar bu qayğıdan daha da ruhlanaraq əsassız ididalara düşüblər. Onların yeni ərazilər uğrunda müharibəyə başlamaları, sonda Azərbaycanın qarşısında diz çökmələri də həmin əsassız iddialarına söykənirdi.

Müharibədən sonrakı dövrdə artıq bəzi beynəlxalq hüquq müdafiə təşkilatları həqiqətləri etiraf edirlər. Belə ki, "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatı Ermənistanın Azərbaycanın Bərdə şəhərini kaset bombalarından atəşə tutduğunu təsdiq edib. Son hesabatlar göstərir ki, artıq həqiqəti gizlətmək çətinləşir. Azərbaycan dövlətinin qətiyyətli mövqeyi, diplomatiya müstəvisində real həqiqətlərə əsaslanan təbliğatı əsasında dünya ədalət deyilən məfhumun mövcudluğu ilə barışır. Bu təşkilatın nümayəndələri hadisə yerində olub və araşdırma aparıblar. Beynəlxalq hüquq müdafiə təşkilatlarının Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı qadağan olunmuş kaset bombalarından istifadə etdiyinə dair açıqlama yaymaları artıq dünya ictimaiyyətinin erməni vandalizminə və terrorizminə göz yuma bilmədiyini göstərir.

Təşkilatın araşdırmaçılarının noyabr ayında Azərbaycana səfərləri zamanı əyani surətdə gördükləri həqiqətlər onların mövqelərində dəyişikliyin olması ilə nəticələnib. Məhz aparılan araşdırmalar zamanı üç rayona klastr bombaları ilə dörd hücumun gerçəkləşdirildiyi sənədləşdirilib. Bu hücumlarda ikisi uşaq olmaqla azı yeddi mülki şəxs öldürülüb, yenə də ikisi uşaq olmaqla 20 nəfər yaralanıb. "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatı dekabrın 15-də "Ermənistan Azərbaycana qarşı klastr bombalarından istifadə edib" adlı hesabatında bildirir ki, klastr sursatlarından istifadə müharibə qanunlarının pozulması deməkdir. Standart beynəlxalq nəşrlərə istinad əsasında o da vurğulanır ki, Ermənistanın arsenalında "Toçka" və "İsgəndər" ballistik raketləri, "Smerç" və Çin istehsalı olan "WM-80" yaylım atəşi sistemləri var. Ermənistan ordusu və Dağlıq Qarabağdakı erməni hərbi qüvvələri altı həftəlik müharibə dövründə Azərbaycanda sıx yaşayış məntəqələrinə dəfələrlə klastr bombları atıblar. Təşkilatın Avropa və Orta Asiya üzrə direktoru Hyu Uilyamson hesabatda klastr sursatlarının beynəlxalq sazişlə qadağan olunduğunu bildirib. Qeyd edib ki, Ermənistan bu silahlardan istifadəyə görə də beynəlxalq hüquq qarşısında cavab verməlidir. Klastr sursatları qadağan olunduğundan onlardan heç bir şəraitdə istifadə edilməməli, yaxud başqasına verilməməlidir. Hesabatda Ermənistanın beynəlxalq hüquq çərçivəsində cəzalandırılmasının vacibliyi açıq-aşkar etiraf edilir.

***Yeganə Əliyeva***

# Baş prokuror intihara cəhd faktını nəzarətə götürdü

***Bakıda taksi sürücüsünün intihara cəhd etməsi ilə bağlı cinayət işi başlanıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, dekabrın 16-da saat 20 radələrində Elçin Məmmədovun sürücü işlədiyi Sabunçu rayonu, E.Mehdiyev küçəsi 40 ünvanında yerləşən "Bakı Taksi xidməti" MMC-də üzərinə alışqan maddə tökərək intihara cəhd etməsi barədə Sabunçu rayon prokurorluğuna daxil olmuş məlumat əsasında prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülmüş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.***



Fakta görə Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanmış, zəruri ekspertizalar təyin edilib.

İntihara cəhdin səbəblərinin araşdırılması məqsədilə zərərçəkmişin ailə üzvlərinin, qonşuların və digər şəxslərin ifadələri alınıb. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Qeyd edilən hadisə Baş Prokurorluğun rəhbərliyi tərəfindən nəzarətə götürülüb. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcəkdir.

# Politik.am: "Ermənistan Qarabağa yığdığı əsgərin 20-30 minini itirdi"

***Ermənistanın müharibədə rəsmi və digər mənbələrin açıqladığı itkilərlə yanaşı, 1400-dən çox hərbçisi də itkin düşüb. SİA xəbər verir ki, bu barədə "politik.am" saytı hərbi mənbələrə istinadən yazır. Sayt qeyd edir ki, itkin düşən 1400 hərbçinin əksəriyyəti ölüb: "Lakin cəsədləri hələki təhvil alınmayıb". Bununla yanaşı, sayt hazırda müxtəlif morqlarda şəxsiyyəti dəqiqləşdirilməyən 700 cəsədin olduğunu da yazır.***



"Ermənistan hakimiyyəti reallığı saxtalaşdırmağa, narazılığa səbəb ola biləcək məlumatları ictimaiyyətdən gizlətməyə davam edir. İndiyə qədər nə qədər itki, yaralı və itkin düşənin olduğunu rəsmi olaraq açıqlanmayıb. İndiyə qədər 3 mindən çox itkinin olduğu deyilir. Keçmiş səfir Minasyan isə 4750 hərbçi itirdiyimizi açıqlayıb. Bəzi informasiyalar Minasyanın dediklərini doğru çıxarır", - sayt yazır.

Qeyd edək ki, Ermənistan tərəfinin itkiləri haqqında belə informsiya yayılmışdı: 8.472 ölü, 13.000 yaralı, 502 əsir, 3.000 itkin. "Ekspert.ru" saytı isə yazırdı: "Ermənistan Qarabağa yığdığı 80 min əsgərin 30-40 faizini (20-30 min) itirdi".

# Minasyandan qeyd-şərtsiz istefa tələbi: Nikol getməlidir, vəssəlam!

*Sabiq səfir: "İctimai fikirlərə təsir göstərən, yalan danışan populyar və ictimaiyyətçi adamların adları açıqlanmalıdır"*



***"Vətəni məhv etmiş və on minlərlə insanın həyatını sındırmış Nikol növbədənkənar seçkilər yolunu təşkil etməklə, özünün siyasi ömrünü uzatması qərarını verib ki, bu, onun heç olmasa seçkiöncəsi müddətdə öz postunda qalmasına şərait yaradır".***

SİA tert.am-a istinadən xəbər verir ki, bu haqda Ermənistanın Vatikandakı keçmiş səfiri, əvvəlki prezident Serj Sarqsyanın kürəkəni Mikael Minasyan feysbuk sosial şəbəkəsində yazıb. O, hesab edir ki, növbədənkənar seçkilərə qədərki dövr süquta uğramış hakimiyyət üçün qısa vaxt deyil. Minasyan seçkilərin lazımlığının mütləq olduğunu qeyd etməklə yanaşı, əhəmiyyətli məsələnin bu deyil, digər məqam olduğunu yazıb və bildirib ki, daha mühüm məsələ "siyasi meyit" Nikol Paşinyanın indi, hazırda, yeni seçkilərə qədər olan qısa zaman ərzində ortadan yığışdırılmasına zərurət var, eləcə də baş vermiş rüsvayçı məğlubiyyətə görə reaksiya və qiymət verilməliydi. O, bunu bir neçə mərhələyə bölüb. Belə ki, Minasyana görə məğlubiyyətə siyasi və milli qiymət vermək lazımdır. Habelə, dövlət xainlərinə və hərbi cinayətkarlara qarşı cinayət işi açılmalıdır. O, hakimiyyətin ələ keçirilməsinin, son 2,5 ildə baş verən planlaşdırılmış, məqsədyönlü və realizə edilmiş addımların da araşdırılmasını tələb edib.

### "Kimin seçiləcəyini və seçilməyəcəyini xalq müəyyən etməlidir"

Minasyan həmin proseslərə xidmət edən, maliyyələşdirən feyk industriyasının aşkara çıxarılmasını, bütün xarici agentlik şəbəkələrinin ifşasını, qanunları pozmağa hesablanmış addımlarda iştirak edən hüquq-mühafizə orqanlarının, vəzifəli və cavabdeh şəxslərin də məsuliyyətə cəlb olunmalı olduqlarını bildirib.

"İctimai fikirlərə təsir göstərən, yalan danışan populyar və ictimaiyyətçi adamların adları açıqlanmalıdır", deyən Mikael Minasyan məğlubiyyətə səbəb olacaq əmrləri bilərəkdən icra edən hərbi xadimlərin də hədəfə alınmalı olduqlarını bildirib və onu da yazıb ki, meyitlərin gizlədilməsi prosesində də kimlərin rol oynamaları aydınlaşdırılmalı, həmçinin, müharibədən sonra ölən və əsir düşmənlərin də səbəbkarları cəzalandırılmalıdır: "Bütün bunlardan sonra yeni seçkilər elan olunmalıdır. Elə bir seçkilər ki, vətəndaşlar hər şeydən məlumatlı olmalıdırlar və kimin seçiləcəyini, kimin isə seçilməyəcəyini xalq müəyyən etməlidir. Çünki digər yerdə qalan hallarda, yeni bu tələblər icra olunmayacağı halda seçkilər saxtalaşdırılacaq, xalq aldadılacaq".

### "Axı siz kimsiniz, ay satqınlar?"

"Qalib ölkə avtomatik şəkildə seçkilərə gedə bilməz. Günahkarları tapmaq, cəzalandırmaq, həqiqəti demək və analizlər aparmaq vacibdir və yalnız bundan sonra cəmiyyətin təmizləndiyi hakimiyyəti yeni səhifədən formalaşdırmaq olar", deyə qeyd edən Minasyan hazırda bir tələbin olduğunu bildirib: "Nikol heç bir şərt irəli sürmədən istefaya getməlidir. Üç əsas hədəf və funksiyalarla müvəqqəti hökumət formalaşdırılmalıdır".

Belə ki, onun sözlərinə görə, dövlətçiliyi kollapsa uğradan hökumət buraxılmalı, Ermənistanın və insanların təhlükəsizliyi təmin edilməli, sayılı həftələrlə baş verəcək iqtisadi kollapsın qarşısı alınmalı, kapitulyasiyada günahlar olanlar cəzalandırılmalıdır.

"Bu qədər. Sadəcə, hər kəsə aydındır. Xüsusilə, vətənin itirilməsindən sonra alver, ya da razılaşmalarla hər şeyi həll edəcəklərinə inanan Nikolun ardıcıllarına aydındır. Lakin bu, baş verməyəcək. Siz kapitulyantlar və siyasi meyitlərsiniz", deyə Minasyan bildirib. SİTAT: "Sizin hətta hər hansı ümumdövlət prosesini keçirməyinizə haqqınız yoxdur. Axı siz kimsiniz, ay satqınlar? Sizə elə gəlir ki, nəyi isə təqdim etməyə hüququnuz var? Onda gedin Yerablura (İrəvanda erməni hərbçilərinin dəfn olunduğu yer) və oradan deyin ki, sizin vəzifə tutmağa, ya da hansısa prosesi təşkil etməyə mənəvi hüququnuz var. Sizinlə yalnız bir razılaşma ola bilər: Faxroyanın siyahısında sizi mühakimə edəcək hakim Karen, Mnats, ya da Artuş olmaya bilər. Onlar sizin iradəsiz cib cəlladlarınız idi. Keçid hökuməti ədalətli məhkəmə və araşdırmaya zəmanət verir. Nikol indi istefaya getməlidir. Dövlət xadimləri və ona yaxın olanların müvəqqəti olaraq siyasi və mənəvi mandat sahibləri olmalarına haqları yoxdur. Həmçinin, onların nə namizədləri, nə də ambisiyaları ola bilər. Alış-veriş ola bilməz və olmayacaq da. Boş yerə Moskvada kabinetdən-kabinetə qaçmayın. Olmayacaq, biz yol verməyəcəyik".

**Rövşən RƏSULOV**



**RƏFİQƏ**

## Şəhidlik qanı ilə yoğrulan - Qarabağ Azərbaycandır!

***Bəli, 44 günümüz ərzində haqq yolunda olduğumuzu sübut etdik, bütövlüyümüzü bərpa etdik, öz dədə-baba torpaqlarımızı murdarlıqdan, insan cildində olan vəhşi ermənilərdən xilas etdik və dəmir yumruğumuzla başlarına elə bir yumruq vurduq ki, bellərini sındırdıq, iti qovan kimi qovduq və sübut etdik ki, Qalib Azərbaycan Sərkərdəsi İlham Əliyevin rəhbərliyi ilə Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizin, xalqımızın birliyinin qarşısında paşinyanların sonu ancaq və ancaq it kimi qaçmaqdır!***

Deyirlər, torpaq su ilə qarışanda palçıq, şəhid qanı ilə qarışanda isə Vətən olur. Bəli, bu 44 gün ərzində igid oğullarımız Vətən yolunda canını sipər etdi, qanları ilə bu torpağı suladı, qorudu ki, Vətən torpağını qeyrət, qəhrəmanlıq, hünər, təəssübkeşlik bitsin, göyərsin...

Şəhid qanı axmayan torpaqdan Vətən olmaz,- dedilər Şəhidlərimiz. Onu da dedilər ki, bu gün biz Şəhid olmuruq, işğal olunan torpaqlarımızın azad olunmasında Şahidlik edirik. Azad olunan torpaqlarımızda üçrəngli azərbaycan Bayraqlarımızın qaldırılmasına Şahid oluruq!

Çünki bu gün bu əsgərlərimiz üçün cəbhə bir ananının oğullarının, bir bacının qardaşlarının bir olduqları döyüş meydanıdır. Şəhid olan əsgərlərimiz, yurdsevər ərənlərimiz, bir an düşünmədən canını Vətən, torpaq yolunda fəda edən cəngavərlərimiz hər kəsə nəsib olmayan Tanrının, haqqın dərgahındasınız! Düşməndən qisas almağa can atan, qeyrətli, təəssübkeş, Vətənin ən layiqli oğullarısınız! "Vətən üçün ölməyə dəyər!" - deyən əsgərlərimiz düşmən qarşısında diz çökməyən, diz çökdürən ərənlərimizsiniz. Qeyrətli igidlər, Vətənin dar günündə düşmən qarşısına - önə çıxdınız, sinənizi sipər edib ömrünüzü bu millətin ömrünə caladınız. Doğulduğunuz torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", - deyib canından keçən igid oğullarımız, sizin igidliyinizin nəticəsidir ki, bu gün bütün evlər, eyvanlar, yollar üçrəngli Bayrağımızla bəzənib. O Bayraq ki, sizin kimi oğulların sayəsində ucalır, dalğalanır. O Bayraq ki, sizin şücaətinizin sayəsində Cəbrayıla, Qubadlıya, Füzuliyə, Zəngilana, Ağdama, Şuşaya, Kəlbəcərə, Laçına - Qarabağ Azərbaycandır!a yol aldı. Və özünüz də Qarabağ Azərbaycandır! uğruna canınızı qurban verdiyiniz üçrəngli bayrağa bükülüb qəhrəman kimi qayıdırsınız elimizə, evinizə, yurdumuza, uğrunda can verdiyiniz Vətən torpağına. Bax, budur Şəhidlik, bax, budur qeyrət, hünər! Siz Azərbaycanın rəşadətli, igid əsgərlərisiniz! Vətən siz xilaskar əsgərlərimizin qanı ilə yoğrulan torpaqlarımızın xilaskarlarısınız. Çünki Qarabağ Azərbaycandır!

Ali Baş Komandanımız İlham Əliyev cənablarının dediyi kimi: "Bizim əsgərlərimiz xilaskar əsgərlərdir, erməni əsgərləri işğalçı əsgərlərdir".

Bəli, bizim əsgərlərimiz xilaskar əsgərlərdir, silah, texnika düşməndə də var, ancaq o texnikanı istifadə edən o qol deyil, düşmən qoludur. Çünki Azərbaycan əsgerinin məsləyi Qürurdur, Zəfərdir, Vətən torpağına üç rəngli Azərbaycan Bayrağını sancmaqdır! Bu gün Vətən torpağımız igidlərimizin qanı ilə düşməndən azad olundu. Şəhidlərimizin də qisası alındı! Və torpağını öz qanları ilə yoğuran, Vətən edən, Vətən uğrunda ölümü ilə əbədiləşən ŞƏHİDLƏRİMİZİN məzarının başında qələbə soraqlı üçrəngli ay-ulduzlu Bayrağımız qürurla dalğalanır!

Hər kəs baş əyir məzarının önündə, "Səninlə fəxr edirik, Azərbaycan əsgəri, şərəflə qorudun Vətəni!" deyir. Bax, şəhidlik belə bir zirvədir, ünvanı əbədiyyətdir. Çünki Şəhidlərimiz torpağı Vətən etdilər, Vətəni bütöv etdilər. Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu torpaq bizə ötürülən əmanətdir. Çünki bu torpaqlar Şəhidlik qanı ilə yoğrulan- Qarabağ Azərbaycandır!

## "Ermənistanın varlığı təhlükə altına düşəcək"



***"Düşmən qüvvələrinin indiki təxribatlarını yenidən fəallaşmaları kimi hesab eləmirəm. Terrorçu bir "dövlət" adlanan tayfadan beynəlxalq hüquq normalarına, qarşılıqlı anlaşmaya riayət etmələrini gözləmək sadəlövhlük olardı". Bunu Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.***

Onun sözlərinə görə, Azərbaycan hakimiyyəti bunu bildiyindən əvvəlcədən də bəyan etmişdi ki, Ermənistandan başqa həmsədr ölkələrdən azı birinin iştirakı ilə sənəd imzalamağa hazırdır: "Yəni Ermənistan terroru dəstəkləyən bir dövlət olduğundan onların imzasına etibar etmədiyini öncədən açıq bildirmişdi. İndiki vəziyyətdə terrorçuların təxribatlarını zərərsizləşdirmək həmin üçüncü tərəfin, yeni Rusiyanın üzərinə düşür. Qarabağda mağaralarda, qalın meşəliklərdə, zirzəmilərdə gizlənib, məqamı gələndə təxribat törətmək onların əvvəlcədən planları olub və bu planı da reallaşdırmaq istəyirlər. Mənim qənaətimə görə, problemin həllindən de-fakto kənarda qalan digər həmsədr dövlətlərin, xüsusən də Fransanın sərgilədiyi siyasi mövqe onlarda belə bir inam yaradıb ki, kapitulyasiya aktını imzalamaqlarına baxmayaraq hələ də xaricdən dəstək alıb, istədiklərinə nail ola bilərlər. Bu da hayların nə qədər dövlətçilikdən, beynəlxalq hüquqdan anlayışsız olduqlarını bir daha göstərir".

T.Novruzov onu da bildirib ki, Azərbaycan Prezidentinin də vurğuladığı kimi, əgər onlar bu yolu tutsalar, iddialarından əl çəkməsələr Ermənistanın özünün varlığı təhlükə altına düşəcək: "Çünki zəif ermənilərin qarşısında regionun ən güclü ordusu dayanıb. Rusiya sülhməramlıları bacarmazlarsa, ordumuz onları tamamilə zərərsizləşdirməyə qadirdir. Ordumuzda zəncir gəmirən oğullar var ki, indinin özündə Ali Bas Komandanın tək bir kəlməsinə bənddirlər. Ermənistan və onu dəstəkləyən qüvvələr bu reallığı qəbul etməsələr, yenə peşman özləri olacaq. Tanrı qalib ordumuzu, müzəffər Ali Baş Komandamızı qorusun".

**Gülyana**

## İlqar Məmmədov: "Virus deyir "sən hansı karantin qoyursan qoy, öz işimi görəcəm"



"Müqayisədən belə çıxır ki, virus karantinə hörmət eləmir". SİA-nın məlumatına görə, bunu ReAl partiyasının sədri İlqar Məmmədov sərt karantin rejiminin qəbul olunmasına münasibətini bildirərkən qeyd edib. Onun sözlərinə görə, koronavirus bütün hallarda öz işini görməkdə davam edir: "Virus deyir "sən hansı karantin qoyursan qoy, öz işimi görəcəm. Azərbaycan və İsveç ikisi də 10 milyon əhalisi olan ölkədir. Azərbaycan dünyanın ən sərt karantinini ən uzun müddət tətbiq edib. İsveç isə demək olar heç bir karantin tətbiq etməyib. Amma 8 ay ərzində orda və burda son 5 ilin "norma"sından artıq olan ölüm sayı eynidir".

"Əslində, bizdə bir qədər daha az olmalı idi, çünki bizdə əhali nisbən daha gəncdir və hər il ölənlərin sayı bizdə ümumən oradakından azdır. Amma eynidir, hətta Azərbaycanda bir qədər çoxdur", deyə qeyd edən İlqar Məmmədova görə, müqayisədən belə çıxır ki, virus karantinə hörmət eləmir. "Eyni əhali sayı olan ölkədə eyni vaxt ərzində eyni qədər adamı öldürür. Elədirsə, onda bu sərt karantinlər nəyə lazım idi?", deyə ReAl partiyasının sədri sual edib.

**R. Nurəddinoğlu**

# XX əsrin 2-ci yarısında: Heydər Əliyev Qarabağı necə erməniləşdirirdi?

***Ötən yazımızda ermənilərin Ümumittifaq miqyasında qaldırmaları və Azərbaycan rəhbəri Bağırovun cavabından və tələblərindən sonra Stalinin məsələyə nöqtə qoymasını qeyd etmişdik. Bundan sonra 20 il bu məsələni qaldıra bilmədilər. Lakin ermənilər Dağlıq Qarabağ ilə bağlı separatçılıq fəaliyyətindən əl çəkmirdilər. 1965-ci və 1977-ci ildə Ermənistanla Qarabağı birləşdirmək çağırışı ilə İrəvanda böyük nümayişlər keçirilmişdi.1965-ci ildə Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin "imzaladığı" petisiya Moskvaya təqdim edilmiş, bunun əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı.***

Erməni separatçıları belə hesab edirlər ki, buna Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibi M.Suslov mane olmuşdur. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə Mərkəzdə göstərdikləri "fəaliyyət" uzun müddət heç bir nəticə vermədi. SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışdılar. Lakin bu dəfə də heç nəyə nail ola bilmədilər. H.Əliyevin qətiyyəti sayəsində onun Azərbaycana rəhbəri (1969-1982) və SSRİ rəhbərlərindən biri olduğu dövrdə (1982-1987) erməni separatçılarının niyyətlərinin canlanmasına yol verilmədi.

1984-cü ildə İrəvanda Z.Balayanın "Ocaq" kitabının çap edilməsi, onun Qarabağın tarixinə və müasir dövrünə dair məqsədyönlü təhrifləri, millətçi-separatçı çağırışları ehtirasları yenidən qızışdırdı. Bu əhval-ruhiyyə erməni millətçiləri tərəfindən əhatə olunmuş M.S.Qorbaçovun elan etdiyi "aşkarlıq və yenidənqurma" şəraitində böyük dəstək qazandı və yeni mərhələyə qədəm qoydu. Qorbaçovdan hərtərəfli dəstək alan erməni separatçıları 1988-ci ildən etibarək prosesi aktiv fazaya keçirdilər.

1987-ci ilin oktyabrın əvvəlində Yerevanda ekologiyaya həsr olunmuş mitinqdə DQMV-nin Ermənistan SSR-ə verilməsi barədə tələb səslənməyə başladı. Yerli mətbuat Azərbaycan rəhbərliyini bölgə iqtisadiyyatını geriləməkdə, erməni mədəniyyətini sıxışdırılmaqda və Dağlıq Qarabağla Ermənistan arasında əlaqələri əngəlləməkdə ittiham etdi. Dağlıq Qarabağ və Ermənistanda muxtar vilayət statusunun dəyişdirilməsi üçün 75 minə yaxın imza toplanmışdı. 1987-ci il dekabrın 1-də yazıçı Zori Balayan başda olmaqla heyət Dağlıq Qarabağın tarixi və müasir durumuna dair imzalar atılmış vərəqələr və 84 sənədi görüş zamanı Politbüro üzvlüyünə namizəd Petr Demiçevə təqdim etmişdir.

DQMV Xalq Deputatları Soveti 1988-ci il fevralın 20-də vilayətin Ermənistana birləşdirilməsi təklifinin lehinə səs verdi. Azərbaycanlı deputatlar səsvermədə iştirak etmədi. 24 fevralda DQMV partiya komitəsinin katibi Azərbaycanın mövqeyini müdafiə edən Boris Kevorov qəbul olunmuş qərarın təsdiqlənməsi üçün tələb olunan rəsmi möhürü oğurlamağa cəhd etmişdi. Fevralın 24-də Kevorkov vəzifəsindən kənarlaşdırılaraq yerinə əhali arasında daha populyar olan Qenrix Poqosyan təyin olundu.

Qarabağ erməni liderləri regionda nə erməni dilində dərsliklərin, nə də televiziya yayımın olmamasından şikayət edərək, Azərbaycanın Kommunist Partiyasının baş katibi Heydər Əliyevi regionun geniş "Azərbaycanlaşdırma" cəhdində, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların sayının və təsirinin artırılmasında ittiham etmişdilər. 1988-ci ilə kimi, Qarabağda erməni əhalisi ümumi əhali ilə müqayisədə təxminən 3/4 dəfə azalmışdı. 1988-ci ilin həmin fevral günlərində Sovet rəhbərləri birdən gördülər ki, vəziyyət gərginləşməyə doğru gedir. Kommunist partiyasının daxilində açıq mübarizə gedirdi, Moskva rəhbərliyi üsyançıları vərdiş etdiyi gücün işlədilməsilə yatıra bilməyəcəyi qənaətinə gəldi. Qorbaçovsayağı dözümlülük prinsipini praktikada tətbiq etmiş Politbüro, Azərbaycan kompartiyası liderlərinə elan etdi ki, onlar münaqişəni yatırmaq üçün gücdən yox, yalnız "partiya xəttinə uyğun" inandırmaq kimi metoddan istifadə etməlidir.

Bu hərəkata məşhur erməni xadimləri rəhbərlik edirdilər və onlar Rusiyada ziyalılar da dəstək verirdi. Jurnalist Tomas de Vaal qeyd edir ki, dissident Andrey Saxarov kimi bəzi Rusiya ziyalıları ermənilləri dəstəkləyirdilər. Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində, DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etmişdi.

Bəyanatın elanından əvvəl ermənilər etiraza başlayaraq, İrəvanda işçilər nümayişlər edib, anklavın Ermənistana birləşməsini tələb edirdilər. Bu Bakıda əks etirazlara səbəb oldu. İrəvanda nümayişlərdən sonra, 1988-ci il fevralın 26-da Qorbaçov Qarabağ hərəkatının iki rəhbəri olan Zori Balayan və Silva Kaputikyan ilə görüşdü. Qorbaçov onlardan nümayişlərə görə bir aylıq moratorium istədi.

Qorbaçov konkret vəd etməsə də, Kaputikyan eyni axşam Ermənistana qayıtdı və xalq qarşısında çıxış edərək "ermənilər qələbə çaldı" deyə bildirdi. Svante Kornellə görə, bu Moskvaya təzyiq cəhdi idi. Martın 10-da Qorbaçov Sovet Konstitusiyasının 78-ci maddəsinə uyğun olaraq, respublikalar arasında sərhədlərin dəyişikliyinin mümkün olmadığını ifadə etdi. Qorbaçov Sovet İttifaqının bir sıra digər bölgələrində ərazi dəyişikliklər həsrətini və Qarabağda sərhədlərini yenidən çəkilməsini belə bir təhlükəli presedent olduğunu qeyd etdi. Lakin ermənilər hiddət ilə Kavburonun 1921-ci il qərarına baxırdı və onlar öz səylərini, öz müqəddəratını təyinetmə prinsipi ilə tarixi səhvin düzəlişi (konstitusiyada verilən haqq) kimi görürdülər. Digər tərəfdən, azərbaycanlılar ermənilərin belə çağırışlarını ağlasığmaz sayırdı və özlərini Qorbaçovun mövqeyi ilə bərabərləşdirdi.

Erməni nümayişlərinin 7-ci günündə, 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz nümayişi keçirildi. Hadisələr başlayan zaman, tarixçi Süleyman Əliyarlı və şair Bəxtiyar Vahabzadə ilə birlikdə 1988-ci ildə "Azərbaycan" jurnalının 9-cu sayında dərc etdirdikləri "Dağlıq Qarabağ - uydurmalar və həqiqətlər" yazısında, Qarabağın tarixən Azərbaycan torpağı olduğunu bəyan etmişdi.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Mixail Qorbaçov isə tərəddüd edirdi, öz mövqeyini 1988-ci il fevralın 26-da erməni yazıçıları Silva Kaputikyan və Zori Balayanla söhbətdə bildirdi. O dedi ki, statusun dəyişdirilməsi olmayacaq, lakin vilayətin sakinlərinin qanuni tələbləri iqtisadiyyat və mədəniyyət sahəsində islahatlar keçirilməklə yerinə yetirilməlidir.

1988-ci il martın 23-də Sovet İttifaqının Ali Soveti ermənilərin Ermənistanla Dağlıq Qarabağla birləşmə tələblərini rədd etdi. İrəvanda qərarın etiraz qarşısını almaq üçün qoşunlar göndərildi. Qorbaçovun cəhdləri boşuna idi- hər iki tərəf bərabər olaraq barışmaz qaldı. Ermənistanda Naxçıvan bölgəsində baş verən hadisələrinin Dağlıq Qarabağda təkrar olunacağı barədə möhkəm inam var idi: SSRİ qurulmazdan əvvəl, orada əhalinin 40%-i erməni idi, lakin 1980-cı illərdə erməni əhalisi faktiki olaraq qeyri-mövcud idi. 1989-cu il dekabrın 1-də Ermənistanın Ali Soveti Moskvanın kursuna zidd olaraq dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsini rəsmən dəstəklədi.

Qorbaçov tərəfindən kompromisə baxmayaraq, ermənilər məsələni sakitləşmək üçün təkliflərdən imtina etdilər. Kompromisə 400 milyon rubl paketlik erməni dilində dərslik və Qarabağda televiziya verilişləri daxil idi. Eyni zamanda, Azərbaycan Ermənistana hər hansı bir ərazini güzəştə getməyin əleyhinə idi.

1988-ci il dekabrın 7-də Spitak zəlzələsində 25 min nəfər həlak olmuşdu və Spitak və Leninakan (hazırkı Gümrü) şəhərləri darmadağın olduğuna görə, Ermənistanda Qarabağın köçürülmə çağırışları bir az azaldı. İttifaq rəhbərliyi tərəfindən yeni formalaşan Qarabağ Komitəsinin 11 üzvünün, o cümlədən Ermənistanın gələcək prezidenti Levon Ter-Petrosyanın həbsindən sonra münaqişə yenidən qızışdı. Belə hadisələr Ermənistan və Moskva arasında münasibətləri soyuqlaşdırdı: ermənilər Qorbaçova inamını onun Dağlıq Qarabağ üzrə barışmaz mövqesinə görə itirmişdi.

Ermənilərin iddia etdiyi Sumqayıt "poqrom"larından sonra məcburi əhali mübadiləsi baş tutdu: Azərbaycanda yaşayan ermənilər və Ermənistanda yaşayan azərbaycanlılar evlərini tərk etmək məcburiyyətində qalmışdı.

1988-ci ilin sonlarında Ermənistanda yüzlərlə kənd 200 mindən çox azərbaycanlı və müsəlman kürdlərin qovulması səbəbindən boş idi. Müsəlman kürdlər ermənilərə qarşı silahlı münaqişəyə qoşulmasalar da, erməni işğalı altında olan ərazilərdən qovulmuşdular...

*Davamı olacaq*

**Altay**
**Yazıda Elmlər Akademiyasının Tarix İnstitutunun materiallarından istifadə edilmişdir**

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**18 dekabr**


**QARABAĞ AZƏRBAYCANDIR!**

## Azərbaycanda 2021-ci ildə Formula 1-in keçiriləcəyi tarix təsdiq edilib



Azərbaycanda 2021-ci ildə Formula 1 Qran prisinin keçiriləcəyi tarix təsdiq edilib. SİA-nın məlumatına görə, Avtomobil İdmanı Federasiyasının (FİA) Ümumdünya şurası 2021-ci il üçün "Formula-1" təqvimini təsdiqləyib. Təqvimdə Azərbaycanda Formula 1 Qran prisinin 2021-ci il 6 iyunda keçirilməsi nəzərdə tutulur.

## "Liverpul" "Tottenhem"ə qalib gəlib, "Arsenal" heç-heçə oynayıb

***Futbol üzrə İngiltərə Premyer Liqasında 12-ci turun oyunları keçirilir. SİA xəbər verir ki, bu tur çərçivəsində daha altı qarşılaşma baş tutub. Mövsümə uğursuz start verən "Arsenal" doğma meydanda "Sauthempton"la qarşılaşıb və yenə qələbəyə həsrət qalıb.***

Turun mərkəzi görüşü Mersisaydda keçirilib. Son çempion "Liverpul" doğma meydanda lider "Tottenhem"lə münasibətlərinə aydınlıq gətirib. Üç qolun qeydə alındığı matç "qırmızılar"ın qələbəsiylə yekunlaşıb.



## İngilislər açıqladı: Kavani irqçidir!

İngiltərə Futbol Asossasiyası "Mançester Yunayted"in futbolçsu Edinson Kavanini irqçilikdə ittiham edib. Belə ki, bu barədə qurumun rəsmi saytı məlumat yayıb. Assosasiya 33 yaşlı hücumçunun öz İnstaqram səhifəsində azarkeşə "Neqrito" (qara dərili) ifadəsini işlətməsini irqçiik hesab edir:

"Edinson Kavani öz İnstaqram səhifəsindəki postda İngiltərə Futbol Asossasiyasının qaydalarını pozan sözdən istifadə etdi. Buna görə də ittiham olundu. Oyunçunun səhifəsində yazılan şərh təhqiramizdir və futbola ziyan vurur. Bu, ağır bir qayda pozuntusudur. Kavani



2021-ci il yanvarın 4-dək ittihamlara etiraz edə bilər". Qeyd edək ki, Kavani sözügedən şərhdən sonra həmin sözü təhqir məqsədi ilə istifadə etmədiyini bildirib və yazını silib.

## XƏBƏRDARLIQ: Whatsapp hesabınız elə keçirilə bilər!




Yerli Whatsapp istifadəçilərinə kiber təxribatlar var. SİA xəbər verir ki, bu barədə texnologiya üzrə ekspert Fərid Pərdəşünas paylaşım edib. O, bildirib ki, "Whatsapp" hesablar ələ keçirilə bilər.

Bəs proses necə baş verir?

* Təxribatı törədən şəxs sizin nömrəniz ilə başqa telefonda Whatsappdan qeydiyyatdan keçir.

* Bu zaman sizin smartfona təsdiqləmə kodu gəlir. Çox adam bu koda fikir vermir.

* Üstündən az bir müddət keçməmiş sizin Whatsapp nömrənizə başqa bir Azərbaycan nömrəsindən mesaj gəlir ki, "əlim dəydi səhvən sizin nömrəyə getdi kod, zəhmət olmasa o kodu mənə göndərə bilərsiniz?"

* Beləliklə siz o kodu göndərən zaman, qarşı tərəfə öz Whatsapp hesabınızı öz əllərinizlə vermiş olursunuz.

"Bura qədər hər şey bəsitdir. Kim bunu edər deyirsiniz? Amma təxribat zəncirvaridir. Bir nəfərin "Whatsapp"ı ələ keçəndən sonra artıq həmin adamın nömrəsindən onun tanışlarına yazılmağa başlanır ki, qardaşım bəs sənə kod göndərdim, əlim dəydi səhvən. Onu göndər mənə. Məsələn, əgər mənim "Whatsapp hesabım oğurlanıbsa, bundan sonra mənim tanışlarıma hücum olunur. Tanışlarım da mənə güvəndiyi üçün kodu mənə verirlər. Bu məşhur sosial mühəndislik nümunəsidir. Hazırda zərər çəkənlər var. Diqqətli olmağınızı, belə kodlar gələndə heç kimlə bölüşməməyinizi məsləhət görürəm", - deyə ekspert bildirib.

## Güləşçilərimiz Dünya Kubokunda dördüncü medalını qazanıb




Serbiyada güləş üzrə Fərdi Dünya Kubokunda beşinci yarış gününə yekun vurulub. SİA-nın məlumatına görə, qadın güləşçilərin ikinci medal günündə son 5 dəst mükafatın sahibini müəyyənləşdiriblər. Azərbaycan millisinin iki güləşçisi də həlledici görüşə çıxıb. Təmsilçilərimizdən Alyona Kolesnik (57 kq) təsəlliverici görüşə çıxıb və almaniyalı Laura Mertensə qalib gələrək (4:1) bürünc medal uğrunda qarşılaşmaya vəsiqə qazanıb. Həlledici görüşdə sonuncu xal prinsipinə əsasən Kolesnik rusiyalı Veronika Çumikovaya uduzub (2:2).

Ondan fərqli, Elis Manolova çıxışını bürünc medalla bitirib. 65 kq çəki dərəcəsində çıxış edən güləşçi 3-cü yer uğrunda görüşdə türkiyəli Əsli Dəmirdən üstün olub - 4:0.

Bu, qadınlardan ibarət milli komandamızın ilk medalıdırsa, ümumi hesabda 4-cü mükafatımızdır. Daha öncə yunan-Roma güləşçilərimizdən İslambek Dadov (67 kq) gümüş, Eldəniz Əzizli (55 kq) və Beka Kandelaki (130 kq) bürünc medala sahib olub.

## Şabran sakinindən odlu silah götürülüb



Şabran rayon sakini İ.Soltanovdan müvafiq sənədləri olmayan tüfəng götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Şabran RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Çayqaraqaşlı kənd sakini İ.Soltanovdan müvafiq sənədləri olmayan "İJ" markalı tüfəng aşkar edilərək götürülüb.

## Evdən meyit tapıldı

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Gəncə şəhərinin Kəpəz rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. SİA-nın nazirliyin rəsmi saytına istinadən verdiyi xəbərə görə, hadisə yerinə cəlb olunan Gəncə Regional Mərkəzinin xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1975-ci il təvəllüdlü Zəkəriyev Emin Tariyel oğlunun meyitini aidiyyəti üzrə təhvil veriblər.



## 3 evdən pul və qızıl-zinət əşyaları oğurlandı

Oğurluq etdiyinə görə tutulmuş S.Həsənovun Xətai rayonu ərazisindəki 3 mənzildən pul və qızıl-zinət əşyaları oğurlaması da müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xətai RPİ 34-cü Polis Şöbəsi əməkdaşlarının oğurluq etdiyinə görə tutulmuş S.Həsənovun ətrafında apardıqları əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki 3 mənzildən ümumilikdə 2010 manat pul, 5350 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyən edilib.


***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**